www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 7-8 yanvar 2017-cı il Şənbə № 2 (6616) Qiyməti 60 qəpik

**Xəbər**

## Bakıda türmədə məhbus şalvarının kəməri ilə özünü asıb öldürdü

yazısı səh.14-də

**Gündəm**

### Banklardan çıxarılan vəsaitə əlavə vergi - gizli iqtisadiyyata dəstək...




Ekspertlər absurd durumu izah edir; "Vətəndaşlar çalışacaqlar ki, belə pul əməliyyatlarını bankdan kənar aparsınlar"

yazısı səh.7-də

### "Eldar Mahmudov şəhərdə göründü" xəbərinin sirri...

yazısı səh.4-də

### "Beytulla Hüseynov kondisionerlərin quraşdırılması zamanı 800 min manatı mənimsəyib" - məhkəmə davam edir

yazısı səh.5-də

### Qarabağ məsələsində yanımızda olan müsəlman ölkələri

yazısı səh.9-da

### Kimsəsiz yəhudi, xristian və müsəlmanların dəfn olunduğu ərazi niyə polis nəzarətindədir?

yazısı səh.15-də

### Bir il öncəki aksiyalar və islahatlar - nəticə nə oldu?

yazısı səh.5-də

### Türkiyə-NATO incikliyi nə vəd edir; İncirlikdən imtina, yoxsa....

yazısı səh.9-da

### Bakıda mənzillər ucuzlaşacaq

yazısı səh.2-də

### Mərkəzi Bankın seçəcəyi iki yol - manatı neyləyək?

yazısı səh.7-də

### Yaxın 3 ayda Qarabağda sülhü mümkünsüz edən 3 səbəb

yazısı səh.11-də

### Ukrayna və Gürcüstanı Avropa üçün vazkeçilməz edən səbəb

yazısı səh.12-də

## 2017-nin gözləntisi: Rusiya tərəfləri sülhə məcbur edəcək?

# QARABAĞDA MÜHARİBƏ QƏRARINI... KREML VERƏCƏK - YENİ SSENARİ

Analitiklərdən maraqlı iddialar var; **Rusiya nəşri:** "Münaqişə dondurulub, ancaq əbədi şəkildə belə qala bilməz"; **rusiyalı ekspert:** "Azərbaycan ərazilərin itirilməsi ilə heç vaxt barışmayacaq...."



yazısı səh.8-də

## Deputatdan Səngəçaldakı partlayışlarla bağlı ilginc açıqlamalar

**Zahid Oruc:** "Artıq bir neçə hadisə baş verib və deməli, biz də terrorun hədəfindəyik"

yazısı səh.6-da



### İş adamı İman Quliyev generalın himayəsinə sığınıb

yazısı səh.4-də



*Anar Nağılbaz:*

### "İstər Elçibəyin, istərsə də Heydər Əliyevin vaxtında haqq səsimi ucaltmışam"

yazısı səh.13-də



*Vaqif Əsədov :*

### "21-ci əsrdə yol polisi olmadan hərəkətimizi tənzimləyə bilmirik"

yazısı səh.15-də



Çingiz Qurbanov

# Ermənilər hərbçimizin meyitini Yerevana apardılar

**Azərbaycan ordusunun hərbçisi Çingiz Salman oğlu Qurbanovun cəsədi Ermənistanla təmas xəttindəki ərazidən Yerevana aparılıb. Modern.az saytı xəbər verir ki, ermənilər bu dəfə də şəhid hərbçimizin Yerevan "morq"unda çəkilən fotolarını sosial şəbəkədə yayıblar.**

Modern.az erməni tərəfinin növbəti dəfə qeyri-humanistlik edərək yaydığı həmin fotoları sosial şəbəkədən əldə etsə də, onu sayta yerləşdirməyi məqbul saymır.

Xatırladaq ki, Çingiz Qurbanov dekabrın 29-da Azərbaycan-Ermənistan təmas xəttinin Tovuz rayonu istiqamətində baş verən döyüş zamanı şəhid olub. Onun cəsədi düşmənin əlinə keçib.

Azərbaycanın çağırışlarına baxmayaraq düşmən şəhidimizn meyitini qaytarmağa tələsmir...

Qeyd edək ki, 22 yaşında şəhid olmuş Çingiz Salman oğlu Qurbanov Qusar rayonunun Həzrə kəndindəndir. Həzrə kənd orta məktəbini bitirən Ç.Qurbanov Azərbaycan Texniki Universitetinin məzunudur. O, universiteti bu il bitirib. İyul ayında isə Qusar rayon hərbi komissarlığından həqiqi hərbi xidmətə çağrılıb.

Çingiz Salman oğlu Qurbanov hərbi xidmətə getməzdən öncə ailəsi ilə birlikdə Bakıda kirayədə yaşayıb.




# Faiq Əmirovun həbs müddəti uzadılıb

**Nəsimi Rayon Məhkəməsində Azərbaycan Xalq Cəbhəsi Partiyası (AXCP) sədrinin köməkçisi, "Azadlıq" qəzetinin yayım direktoru Faiq Əmirov barəsində seçilmiş həbs qətimkan tədbirinin və istintaqın müddətinin uzadılması barədə təqdimata baxılıb.**

APA-nın məlumatına görə, məhkəmə onun barəsində seçilmiş həbs qətimkan tədbirinin və istintaqın müddətini iki ay uzadıb.

Qeyd edək ki, F.Əmirov Cinayət Məcəlləsinin 283.1 (Milli, irqi, sosial və ya dini düşmənçiliyin salınmasına, milli ləyaqətin alçaldılmasına, habelə milli, irqi, sosial və ya dini mənsubiyyətindən asılı olaraq vətəndaşların hüquqlarının məhdudlaşdırılmasına və ya üstünlüklərinin müəyyən edilməsinə yönələn hərəkətlər, aşkar surətdə və ya kütləvi informasiya vasitələrindən istifadə olunmaqla törədildikdə) və 168.1-ci (Dini məzhəbləri yaymaq və dini ayinlərin icrası adı altında fəaliyyət göstərən və bu fəaliyyətlə ictimai asayişi pozan, yaxud vətəndaşların sağlamlığına zərər vuran və ya formasından asılı olmayaraq vətəndaşların hüquqlarını pozan, habelə vətəndaşların qanunla müəyyən edilmiş vəzifələrini yerinə yetirməkdən yayındıran qrup təşkil etmə, ona rəhbərlik etmə və ya belə qrupda iştirak etmə) maddələri ilə təqsirləndirilir.

**F.Əmirov barəsində həbs qətimkan tədbiri ilk dəfə ötən il avqustun 22-də Nəsimi rayon Məhkəməsi tərəfindən seçilib. Sonradan həmin müddət bir dəfə artırılıb.**

"Qaya Mətbuat Yayımı" MMC!

**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan**
**"Yeni Müsavat" - 0.60 AZN**
**və bundan əlavə 2500 adda yerli**
**və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.

**Telefonla zəng etməyiniz kifayətdir:**
**Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur.

# Hərbi Hava Qüvvələrinin aviabazasında yeni yaşayış binasının açılışı oldu

**Prezident, Ali Baş Komandan İlham Əliyevin Silahlı Qüvvələrin şəxsi heyətinin sosial-məişət şəraitinin yaxşılaşdırılması ilə əlaqədar göstərişinə əsasən, Hərbi Hava Qüvvələrinin aviabazasında yeni inşa edilən növbəti yaşayış binasının yanvarın 6-da açılışı həyata keçirilib.**

Musavat.com Müdafiə Nazirliyinin saytına istinadən bildirir ki, xidməti mənzillərin açarlarının təqdimetmə mərasimində uçuş və texniki heyət, eləcə də onların ailə üzvləri ilə görüşən müdafiə naziri, general-polkovnik Zakir Həsənov nazirliyin rəhbərliyi adından tədbir iştirakçılarını təbrik edib.

Nazir bildirib ki, yeni binaların istifadəyə verilməsi hərbi qulluqçuların sosial şəraitinin yaxşılaşdırılması sahəsində görülən işlərin tərkib hissəsidir. Bu, ümumilikdə Silahlı Qüvvələrdə şəxsi heyətin mənzil təminatının yüksəldilməsi istiqamətində icra olunan kompleks tədbirlərin davamıdır.

Dövlətin qayğısı nəticəsində son illərdə mindən çox hərbi qulluqçunun daimi mənzillə, 1400-dək hərbi qulluqçunun isə xidməti mənzillə təmin olunduğu





və bu işlərin cari ildə də davam etdiriləcəyi diqqətə çatdırılıb.

Müasir silah-sursat, döyüş texnikası, aviasiya vasitələri və avadanlığın alınaraq silahlanmaya daxil edilməsini xatırladan general-polkovnik Z.Həsənov görülən kompleks tədbirlərin ölkə başçısının Silahlı Qüvvələrə göstərdiyi qayğının bariz nümunəsi olduğunu xüsusi qeyd edib.

Yeni tikili ilə tanışlıq zamanı məlumat verilib ki, beşmərtəbəli, 50 mənzilli bina tam təmirli üçotaqlı mənzillərdən ibarətdir və bütün kommunikasiya xətləri ilə təchiz olunub. Hərbi qulluqçuların ailə üzvlərinin səmərəli istirahəti üçün lazımi şərait yaradılıb.

Mənzillə təmin olunan hərbi qulluqçular göstərilən qayğıya görə Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə öz minnətdarlıqlarını bildiriblər.

**Mənzillərin açarları hərbi qulluqçulara təqdim edildikdən sonra Müdafiə Nazirliyinin rəhbərliyi yaradılan şəraitlə tanış olub, ailələrin qayğıları ilə maraqlanıb və çay süfrəsi ətrafında onlarla söhbət edib.**



# Bakıda mənzillər ucuzlaşacaq

**Bakıda mənzillərin qiyməti ucuzlaşacaq. Bu barədə virtualaz.org-a iqtisadçı-ekspert Vüqar Bayramov bildirib.**

Ekspert hesab edir ki, əvvəllər Bakıda mənzillərin qiymətinin süni şəkildə şişirdililməsi müşahidə olunurdusa, artıq son illər, xüsusən də, son 2 ildə ciddi qiymət azalmaları müşahidə edilir.

"Bu ilin birinci yarısında mənzil bazarında qiymət azalmalarının davam edəcəyi gözlənilir. Bir tərəfdən, alıcılıq qabiliyyəti aşağı düşüb və bu da bazarda tələbin azalmasına səbəb olub. Rusiyada yaşayan həmyerlilərimiz də artıq Bakının mənzil bazarında tələb yaratmırlar.

Digər tərəfdən, manatın bazar dəyəri müəyyənləşdirilmədiyi üçün potensial alıcılar da öz pullarını dollarda saxlamağa üstünlük verirlər. Evi satanlar isə daha qısa zamanda mənzili satıb pulu xarici valyutaya çevirməyə üstünlük verdikləri üçün bazarda təklif də azalmır. Bu da mənzil bazarında tələb və təklif arasında kəskin fərq yaradır", - deyə V.Bayramov vurğulayıb.

Ekspertin sözlərinə görə, manatın bazar məzənnəsi müəyyənləşənədək əmlak bazarındakı durğunluq qalacaq. Buna görə də, milli valyutanın bazar dəyəri müəyyənləşməzsə, yaxın aylarda əmlak bazarında tələb dəyişməyəcək, bu isə yeni qiymət azalamları deməkdir.

**Ekspert onu da əlavə edib ki, hazırda mənzillərin qiymətinin artması üçün heç bir ciddi iqtisadi səbəb yoxdur.**

# "Yeni ili maaşsız keçirdik"

## "Azadlıq" qəzeti birdəfəlik qapandı?

**Ötən il sentyabr ayının 5-dən etibarən çapı dayandırılan "Azadlıq" qəzetinin 2017- ci ildə çap olunub-olunmayacağı hələ bəlli deyil. Bunu "Yeni Müsavat"a açıqlamasında "Azadlıq" qəzetinin redaktoru Sücəddin Şərif bildirib. O qeyd edib ki, qəzetin çapa başlaması üçün əllərindən gələni etsələr də, hələ ki buna nail olmayıblar: "Biz "Azadlıq" qəzetinin yenidən işıq üzü görməsi üçün səylərimizi davam etdirəcəyik. Amma mən dəqiq deyə bilmərəm ki, bunun nəticəsi necə olacaq. Əlimizdən gələni edəcəyik ki, qəzetin çap versiyası bərpa olunsun. Ancaq bizdən asılı olmayan səbəblər də var".**

"Azadlıq" qəzetinin internet versiyasına gəlincə, Sücəddin Şərif bildirdi ki, bu əvvəlkindən də güclü şəkildə fəaliyyətinə davam edir: "Sayt və facebook səhifəsi fəaliyyətini davam etdirir, əvvəlkindən də yaxşı formada çalışır. 2017-ci ildə də bu istiqamətdə fəaliyyətimizi davam etdirəcəyik".

**Redaktorun sözlərin görə, "Azadlıq" qəzetinin çap versiyasının dayanmasına səbəb bank hesabı üzərində əməliyyatların aparıla bilməməsidir:** "Çap versiyasının dayanmasına səbəb bank hesabından istifadə edə bilməməyimizdir. Biz hətta Yeni ili də hamılıqla maaşsız keçirmək məcburiyyətində qaldıq. Əməkdaşlarımız da bizimlə yollarına davam etsələr də, maaşsız işləyirlər, maddi sıxıntı içindədirlər.

Amma çalışacağıq ki, bu istiqamətdə nələrəsə nail olaq. Bununla bağlı hökumətə birbaşa müraciətimiz olmayıb. Ancaq mən bir neçə dəfə Mətbuat Şurasının sədri Əflatun Amaşovla görüşmüşəm, bu məsələni müzakirə etmişik. Bizim redaksiyanın Mətbuat Şurasına yazılı müraciəti də olub. Amma hələ ki nəticəsi yoxdur. Əlimizdən gələn hər şeyi edəcəyik ki, oxucular 2017-ci ildə "Azadlıq" qəzetini oxuya bilsinlər".

❑ Nərgiz LİFTİYEVA

# Qəsdən adam öldürmə cinayətlərinin 96,6 faizi açılıb

**Yanvarın 6-da Baş Prokurorluqda 2016-cı ildə prokurorluq orqanları tərəfindən görülmüş işlərin və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş əməliyyat müşavirəsi keçirilib.**

Musavat.com Baş Prokurorluğun mətbuat xidmətinə istinadən bildirir ki, müşavirədə baş prokuror Zakir Qaralov çıxış edib. Bildirib ki, 2016-cı il Azərbaycan Respublikası Prokurorluğu orqanları üçün də uğurlu hesabat dövrü olub. Digər hüquq mühafizə orqanları ilə, ilk növbədə Daxili İşlər Nazirliyi və Dövlət Təhlükəsizliyi Xidməti ilə əlaqəli şəkildə ictimai-siyasi sabitliyin qorunması, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, vətəndaşların hüquq və azadlıqlarının müdafiəsi sahəsində zəruri tədbirlərin görülməsi təmin olunub.

Baş prokuror deyib ki, hesabat ilində qəsdən adam öldürmə və qəsdən adam öldürməyə cəhd cinayətlərinin açılması və onları törətmiş şəxslərin müəyyən olunub məsuliyyətə cəlb edilmələri üçün zəruri tədbirlərin həyata keçirilməsi diqqət mərkəzində saxlanılıb: "Daxili İşlər Nazirliyi və Dövlət Təhlükəsizliyi Xidmətinin əməliyyat qurumları ilə həyata keçirilən birgə səmərəli istintaq-əməliyyat tədbirləri nəticəsində qeydə alınmış 178 qəsdən adam öldürmə cinayətlərindən 172 hadisənin, o cümlədən qeyri-aşkar şəraitdə törədilmiş 64 cinayətin isti izlərlə açılması təmin olunmaqla, həmin cinayətlərin açılması 96,6 % (2015-ci ildə 95,5 %) təşkil etib.

Göstərilən müddətdə qeydə alınmış qəsdən adam öldürmə cinayətlərinin sayı 2015-ci illə müqayisədə 25 hadisə və açılmamış bu xarakterli cinayətlərin sayı 3 hadisə azalmışdır".

Məruzəsində Z.Qaralaov deyib ki, Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən dövlət və özəl sektorun 313 vəzifəli şəxsi barəsində 201 cinayət işinin istintaqı tamamlanaraq baxılması üçün məhkəmələrə göndərilib. Həmin işlər üzrə vurulmuş 202 milyon 430 min manat maddi ziyandan 31 milyon 752 min manatının ödənilməsi təmin edilib, 78 milyon 283 min manat məbləğində əmlakın üzərinə həbs qoyulub.

**Baş prokuror vurğulayıb ki, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin vəzifəli şəxslərinin dövlət əmlakının mənimsənilməsi və digər qanunsuz əməllərinə dair cinayət işi üzrə istintaq yekunlaşdırılaraq 11 vəzifəli şəxs barəsində cinayət işi baxılması üçün məhkəməyə göndərilib. Vurulmuş ziyanın 18 milyon 778 min manatının ödənilməsi təmin edilib, 66 milyon 985 min manat məbləğində əmlakın üzərinə həbs qoyulub.**

YENİ MÜSAVAT
N 2 (6616) 7 yanvar 2017

**2003-cü ildə siyasətdən getdiyi deyən və bundan sonra ancaq Cənubi Azərbaycanın problemləri ilə məşğul olacağını bəyan edən AMİP lideri Etibar Məmmədov bu günlərdə yenidən daxili siyasətə "qayıdışı"na dair xəbərlər siyasi çevrələrdə müzakirə olunmaqdadır. 1998-ci ildə prezidentliyə müxalifətin əsas namizədi olan, bundan 5 il sonrakı seçkilərdə yenə də əsas iddiaçılardan sayılan AMİP liderinin Azərbaycan siyasətində dəyişiklik edə biləcəyi ilə bağlı mövqelər birmənalı deyil. 14 ildir siyasətdə görünməyən bir şəxsin əvvəlki nüfuzunu bərpa edəcəyinə inananlar da var, bunun əksini deyənlər də.**

# Etibar Məmmədovun "qayıdış"ı Azərbaycan siyasətinə nə vəd edir...

## Elşad Musayev: "Siyasətdə ara-sıra görünmək onun taktikasıdır"

## Əli Əliyev: "Hakimiyyətdaxili dəngə həmin şəxsin siyasətə qayıdışını nəzərdə tutmur"

Doğrudur, hələ də Məmmədov siyasətə geri dönüş etdiyi ilə bağlı konkret fikir söyləmir. Amma onun son açıqlamasında hakimiyyəti dəyişmək yollarından danışması artıq AMİP liderinin tezliklə siyasi səhnədə görünəcəyinin anonsudur.

Vaxtı ilə AMİP-in rəhbərliyində təmsil olunan, sonradan istefa verərək özlərinə yeni siyasi partiya yaradan şəxslərin bununla bağlı mövqelərini aldıq.

**AMİP-in keçmiş baş katibi, Böyük Azərbaycan Partiyasının sədri Elşad Musayev** bildirdi ki, Etibar Məmmədov heç vaxt siyasətdən getməyib: "Çoxları belə düşünür, amma o siyasətin içərisində indiyə qədər olub. AMİP-lə bağlı kifayət qədər informasiyalara malik olduğumdan, Azərbaycan siyasətinin daim içərisində olduğuma görə qəti şəkildə belə düşünürəm. Sadəcə bir qədər siyasətdən geri çəkilib. Partiyasının lideridir, Beynəlxalq Demokrat İttifaqının sədr müavinidir. Görünən odur ki, bu müddət ərzində Etibar Məmmədova belə siyasət aparmaq sərfəli görünüb. Zamanında o Azərbaycanın böyük siyasətçilərindən biri olub. İndi o çapda qalanlar İsa Qəmbər, Lalə Şövkət, Rəsul Quliyev və Etibar bəyin özüdür. Zaman var idi ki, həlledici söz sahibləri bu şəxslər hesab olunurdular. 1998-ci ildə Etibar Məmmədovun, 2003-də isə İsa Qəmbərin nailiyyətləri oldu. Amma indi hərənin öz taktikası var. Bir qisim aktiv siyasətdə görünmək istəyir, digər qisim bunun əksini doğru sayır. Etibar bəy siyasi səhnəyə çıxarsa, dəstəyinin necə olub-olmaması ilə bağlı danışmaq çox çətindir. İndiki zaman əvvəlki kimi deyil. Jurnalistin bir sualına Etibar bəy qısa bir cavab vermişdi. Bu onu göstərdi ki, siyasi dairələrdə, mətbuatda və müxalifətin daxilində bu şəxslə bağlı həssaslıq var. Bir qisim qəti şəkildə kəskin reaksiya verdi. Hiss olundu ki, bu şəxslər onun siyasətə qayıdışını istəmirlər. O şəxslər əvvəlcədən Etibar Məmmədovun əleyhinə olublar. Etibar bəyin mətbuatın içərisində az dəstəyi oldu. Perspektivdə ölkədə hansı situasiyanın olacağını zaman göstərəcək. Kimsə deyə bilməz ki, gələcəkdə vəziyyət dəyişəcək, Etibar Məmmədov gizli qüvvə kimi meydana çıxacaq, kimsə dəstək verəcək, ya yox. Amma istənilən halda Etibar bəy siyasətdə yeni sima kimi qəbul oluna bilməz. Sadəcə, son 14 ildə siyasətdə ara-sıra görünmək Etibar Məmmədov taktikasıdır. Geri çəkilsə də, partiyası fəaliyyət göstərir, özü də biznes işləri ilə məşğuldur. Bəlkə də düşünür ki, zamanı gələndə ortaya çıxsın. Gələcəkdə bu taktikaya dəstək veriləcək-verilməyəcək, zaman göstərəcək. Onu da nəzərə almaq lazımdır ki, artıq yeni qüvvələr, simalar ortaya çıxır, yeni ideyalar yaranır. Yeni nəsil də yeni simalara maraq göstərir, çünki yaşlı siyasətçiləri yaxşı tanımır, yaxud tanımaq istəmirlər. Bu baxımdan yeni nəslin hansı münasibəti göstərəcəyindən də çox şey asılıdır. Heç bir kəsə aqressiv münasibət göstərmək də lazım deyil ki, niyə ortaya çıxdı. Vaxtı ilə müxalif mövqedə olan elə jurnalistlər var ki, indi hakimiyyətin lehinə yazırlar. İndi yazanlar da kim bilir ki, gələcəkdə hara yazacaqlar. Ona görə də mətbuatın rəyi ilə siyasət müəyyən olunmur. Xalqın seçim imkanı olsa, o zaman bilinəcək ki, kimin nüfuzu var ya yox, yaxud Etibar Məmmədov düz edib ya yox".


Etibar Məmmədov

**AMİP-ə vaxtı ilə rəhbərlik edən, hazırda Vətəndaş və İnkişaf Partiyasının sədri olan Əli Əliyev** kifayət qədər eyhamlı danışdı: "O şəxsin siyasətə qayıdışı yalnız söz-söhbət səviyyəsindədir. Bu barədə bir söz demək çətindir. Onun siyasətə nə verə biləcəyinə bizim tərəfdən o vaxt mövqe bildirilə bilər ki, konkret siyasətə qayıtsın, öz iddialarını ifadə etsin. Vətəndaş və İnkişaf Partiyasının ərsəyə gəlməsi AMİP-in daxilində olan fikir ayrılıqları ilə bağlı olub. Orada kimin haqlı olub-olmamasını zaman göstərib. 2005-ci ilin parlament seçkiləri ilə bağlı yaranan narazılıqda haqlı olduğumuzu düşünürük. Əks tərəfi saxta seçkiləri legitimləşdirməkdə günahlandırmışıq və indi də o fikirdəyik. Mövqeyimiz hazırda bəllidir. O partiyanın fəal mövqeyi ortada olmayıb. İki dəfə həmin şəxsin açıqlaması olub ki, bu da konkret bir nazirlə bağlı olub. Həmin nazirin baş nazir ola biləcəyi ilə bağlı konkret açıqlamalar verib. Siyasətə qayıdacağı təqdirdə, onun barəsində daha açıq mövqe bildirəcəm. Amma hazırkı hakimiyyətdaxili dəngə, mövcud situasiya həmin şəxsin siyasətə qayıdışını nəzərdə tutmur. Hakimiyyətdaxili mübarizə kəskinləşərsə, o zaman onun fəal siyasətə qayıdışı olacaq. O zaman da həmin partiyanı daxilindən tanıyan biri kimi mövqeyimizi bildirəcəm".

❑ Cavanşir ABBASLI

# Deputatdan Əli Kərimliyə etiraz

## "O, müxtəlif məxfi materiallara baş vursaydı görərdi ki, Azərbaycan nə dərəcədə müxtəlif beynəlxalq transmilli cinayətkar şəbəkələrin, narkotik qaçaqmalçılarının, terror qruplarının hədəfindədir"

**AXCP sədri Əli Kərimli "Amerikanın səsi"nə müsahibəsində Azərbaycanda terror aktlarının olmamasını hakimiyyətin uğurlu siyasəti, təhlükəsizlik və hüquq-mühafizə orqanlarının yüksək səviyyədə işi ilə deyil, ölkəmizin terrorçuların marağında olmaması ilə izah edib.**

**Milli Məclisin təhlükəsizlik və müdafiə komitəsinin üzvü Zahid Oruc** isə belə bir mövqenin tamamilə yanlış olduğunu bildirib. Zahid Oruc "Yeni Müsavat"a açıqlamasında deyib: "2016-cı ilin aprelində Qarabağ cəbhəsində müharibə zamanı Əli Kərimli vətənpərvər notlarda bir tərəfdən Azərbaycan əsgərinin, zabitinin qəhrəmanlığını öyməklə bərabər, digər tərəfdən dayanma əmrinin verilməsinə görə hakimiyyəti qınayırdı və sanki düşmən səngərinə keçərək ölkə əleyhinə təbliğatda iştirak etmişdi. Bunun nəticəsində Ermənistanın mediası, aparıcı informasiya vasitələri Azərbaycanın müxalif partiya rəhbərinin fikirlərindən silahlanıb informasiya təbliğatında üzərimizə gəlirdi. Dəfələrlə bu məqama istinad edirdilər ki, irəli getmək, düşmənə sarsıdıcı zərbə vurmaq və sair bütün erməniçiliyi məhv eləmək planıdır və Azərbaycan burada Rusiyanın maraqları ilə hərəkətidir, dayanmaqla kənar dövlətlərin iradəsinə özünü tabe etdirir. Məhz Əli Kərimli bu cür fikirlər işlətmişdi və ermənilər də Azərbaycana qarşı təbliğatda bu tezislərdən istifadə edirdilər.

İndi terror məsələsinə Əli Kərimlinin yanaşması da həmin dünyagörüşünün, yanaşmanın daha bir təzahürüdür. Aza qala terrorçuların ideoloji daşıyıcısı olaraq bir mövqe ortalığa qoyulub. Sual oluna bilər Əli Kərimli haradan bilir ki, terror təşkilatları, onların arxasında dayanan güclər nə dərəcədə Azərbaycanla maraqlanırlar yoxsa, maraqlanmırlar. Nədən Əli Kərimli və onun kimi düşünənlər bu ölkədə heç bir məsələ ilə bağlı normal qiymətləndirmə edə bilmirlər. Müxalif platforma və dünyagörüşü məgər hər şeyi ancaq qara rəngdə görmək deyil axı. Yüzlərlə, minlərlə hüquq-mühafizə oranı təmsilçilərinin illərlə gecə-gündüz vəzifə borclarını yüksək səviyyədə həyata keçirmələrinə, onların xalqın təhlükəsiz yaşaması üçün çəkdikləri zəhmətə normal qiymət vermək məgər müxalifətçiliyə zidd olar?! Hər hansı bir terrorçunun ifşa edilməsi və bunun nəticəsində onlarla insanın həyatının təhlükələrdən qorunması gerçəkdənmi təqdirəlayiq hadisə deyil?! Dünyada müxalifətçilik fəlsəfəsi hər şeyi inkar etmək, bütün müsbətləri inkar etmək deyil axı. Azərbaycanda bəzilərinin məhz "hər şeyi inkar" yanaşması üzərində köklənməsi əslində təhlükəli yanaşmadır. Çünki belə yanaşma göründüyü kimi ona gətirib çıxarır ki, burada terror olmadığı üçün hüquq-mühafizə, təhlükəsizlik orqanlarına deyil, az qala terrorçulara minnətdarlıq edilir. Əslində bu düşüncədə olan adamlar özü də fərqində deyil ki, məfkurə terrorçuluğu ilə məşğuldurlar".


Əli Kərimli

**Deputat qeyd etdi ki, Əli Kərimli müxtəlif məxfi materiallara baş vursaydı görərdi ki, Azərbaycan nə dərəcədə müxtəlif beynəlxalq transmilli cinayətkar şəbəkələrin, narkotik qaçaqmalçılarının, terror qruplarının hədəfindədir və hüquq-mühafizə orqanlarımız, təhlükəsizlik orqanlarımız onların müxtəlif planlarının qarşısını necə alırlar:** "Biz bu gün çox böyük riskli məkandayıq. Necə olur ki, məsələn, Dövlət Neft Akademiyasında bir neçə il öncə baş verən qanlı hadisə üzərində dərhal bizim ölkəmizin müxtəlif maraq çəkişmələrində olduğuna görə hakimiyyəti qeyri-ayıqlıqda suçlandırırdılar və terrorun qarşısını ala bilməməkdə qınayırdılar, indi də fikirlərindən belə çıxır ki, sən demə, ölkəmizdəki bütün sabitlik terrorçuların mərhəmətinə bağlıymış. Bəlkə, Əli Kərimli qara bayraq altında birləşənlərə təşəkkür eləsin ki, siz Azərbaycana maraq göstərmirsiniz, burada təhlükələr törətmirsiniz. Əslində təşəkkür edilməli olanlar uzun illərdir Azərbaycanın təhlükəsizliyini qoruyan qüvvələr-Dövlət Xüsusi Mühafizə İdarəsi, təhlükəsizlik sisteminin içərisində yer alan və gözəgörünməz cəbhədə Azərbaycanın maraqlarını heç nəyə qurban verməyən insanlar, Daxili İşlər orqanları, Sərhəd Xidmətidir. Onlar dövləti, xalqı və onun da içində müxalifəti də qoruyurlar. Milli təhlükəsizlik məsələsində müxalif mövqe yerində olan mövqe deyil. Hakimiyyətə müxalifətdəsən deyə milli təhlükəsizliyimizin qorunmasında əməyi olanların zəhmətini yerə vurmalı deyilsən".

❑ E.SEYİDAĞA

YENİ MÜSAVAT
N 2 (6616) 7 yanvar 2017



## Evləri var xana-xana... biri də olsun bu yana

Samir SARI

**Bu gün söhbətə duzlu-məzəli kəndimizdə baş vermiş hadisə ilə başlamaq istəyirəm. Söhbətin dürüstlüyünə də tam təminat verirəm. Bunu mənə söhbətin qəhrəmanı özü danışıb.**

Sovet dövrünün axır illərində evsiz gənclər çox idi. Yetkinlik yaşına çatmış, ailə qurmuş şəxslər ata ocağında qalmağa məcbur idilər. Çünki onlara ev tikmələri üçün torpaq ayrılmırdı. Bəzilərinin yaşı 35-i adlamışdı, 3-4 uşaq yiyəsi idilər, amma hələ də ata evlərində, böyük və kiçik qardaşları ilə bir yerdə yaşayırdılar. Həyətə girirdin, ev ailəvi yataqxanaya, həyət uşaq bağçasına oxşayırdı.

Elə adamlardan biri də sovxoz direktorunun sürücüsü C. idi. Onların atadan qalma, sonradan artırmalarla süslənmiş ikimərtəbəli evləri vardı, amma yenə darısqallıq idi. C. üç uşağı ilə birlikdə birgöz otaqda yaşayırdı.

Bir gün o, mənzil şəraitinin düzəldilməsi məqsədi ilə sovxoz direktoruna ağız açmalı olur. Zabitəli, ağsaqqal Hacı dayını evindən götürüb idarəyə aparır, direktor maşından düşüb kabinetinə girəndə, deyir, Hacı dayı, bir ərzi-halım var. Ağsaqqal deyir, yaxşı, gələn-gedən çəkiləndən sonra gələrsən. Sürücü C. hövsələ ilə gözləyir, direktorun yanı boşalanda girir içəri. Hacı dayı deyir, gəl, dərdini de.

Sürücü C. sağa baxır, sola baxır, söhbətə hardan başlayacağını bilmir, udqunur. Hacı dayı deyir, di tez ol, de görüm, nə deyirsən. C. sonuncu dəfə udqunub dilə gəlir: "Əşi, dayı, mən arvadımla yata bilmirəm".

Zəruri qeyd: Sürücü C. bu ifadəni daha açıq formada deyir, özü də elə bir adama ki, o, Qromıko kimi bir kişiydi, heç kəs onun yanında açıq-saçıq danışa bilməzdi.

Hacı dayı heyrətlənir: "Boooy! Bu nə sözdür, ə? Utanmırsan? Mən nə edə bilərəm?" Və sürücüsünü kabinetindən qovmaq istəyəndə C. dillənir: "Əşi, dayı, o mənada ki, ailəliklə birgöz otaqda yaşayırıq. Üç uşaqdır, darısqallıqdır. Kəsəsi, mənə torpaq lazımdır ki, ev tikim".

Gətirilən arqument o qədər tutarlı olur ki, Hacı dayı hirsini birtəhər boğur və C.-yə deyir, yaxşı, ərizəni yaz gətir, sənə 5 sot torpaq ayıraq, yoxsa bizi abırdan salarsan sən.

Beləcə, C.-nin işi düzəlir. Fəqət o, tikdiyi evdə uzun müddət əmin-arxayın yata, yaşaya bilmədi, kənd işğal olundu, C. də məcbur qalıb çadır şəhərciyində yaşayası oldu.

İndi bəzi deputatların ev alması barədə söhbəti eşidəndə, qəzetlərdən oxuyanda, sosial şəbəkədə bu xüsusda yazılan yüzlərlə şərhə, rəyə göz atanda yadıma kəndçimizin torpaq almaq üçün gətirdiyi "tutarlı arqument" düşür və düşünürəm ki, görəsən, deputatlar yeni bir evə ehtiyacları olduğunu hansı gərəkcə ilə arqumentləşdiriblər.

(Düzdür, indilikdə o xəbəri təkzib edirlər, amma bizdə bir qayda var ki, heç kim heç vaxt heç nəyi boynuna almır, axırda məlum olur ki, deyilənlər düz imiş. Görək bu necə olacaq?).

Hamı bilir ki, yaşları 60 civarında (bir az aşağı, bir az yuxarı) olan bu şəxslərin evləri çoxdan var, hətta o vaxtdan ki, kəndçimiz C. birgöz otaqda, hərtərəfli iztirab çəkə-çəkə yaşayırdı. Amma bunların həm rayonda, həm şəhərin mərkəzində evləri vardı. İndinin özündə isə neçə evləri olduğunu bir Allah, bir də Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti bilər. O da hələ o halda ki, o evlər, villalar o deputatların adına sənədləşdirilibsə.

Kimin əslində nə qədər evi, villası, obyekti olduğu ifşa olunub məhkəməyə çəkiləndə ortaya çıxır. Elə olur, A3 formatlı qəzetin qoşa səhifəsi (8-9) o mülklərin siyahısına azlıq edir, məhkəmə reportyorları "ardı var" deyə keçib 10-cu səhifədəki sütunda mülklərin tam siyahısının ardını yazırlar.

Di gəl, göz doymur ki, doymur. Həyətində maşınlardan ibarət qarajı olan şəxs dövlət hesabına verilən 70 minlik "Mersedes S klass"dan imtina etmir, onu da alır qoyur "Porşe"lərinin, "Nissan"larının, "Rang Rover"inin yanına.

"Daha bir ev" məsələsi də o xanədəndir. Axtarsaq, araşdırsaq və o deputatların hamısının olmasa da, bəzilərinin evlərini bir araya cəm eləsək, Bodrumdakı "ağ sitələr" qədər olar. Amma neynirsən, müftədir deyə, birini də alıblar.

**Bu tərəfdə isə kəndçimiz C. kimi on minlərlə gənc ailə başçısı var, bir otaqlı mənzildə kirayədə yaşayırlar və... gecənin bir aləmi tez-tez ayılan uşaqların üzündən iztirab çəkirlər...**

## İş adamı İman Quliyev generalın himayəsinə sığınıb

### Böyük biznes layihələrini yenidən dirçəldən maqnat nazir qohumlarının imkanlarından maksimum faydalanmağa başlayıb

**Tanınmış iş adamı, "Romanc" Palas şadlıq evi, "Şərq Saray" şadlıq evi, "Xalqlar Dostluğu" ticarət mərkəzinin, "Qreen Haus" istirahət mərkəzləri şəbəkəsinin sahibi olan İman Quliyev hazırda daha bir neçə böyük tikinti layihələri üzərində işləyir.**



Bu haqda iş adamına yaxın mənbələrdən məlumat daxil olub. Məlumatda bildirilir ki, İman Quliyev Bakı şəhərinin Zığ qəsəbəsində 150 min kv sahəsi olan Yaşayış kompleksi inşa etdirir. İş adamının çevrəsindən musavat.com-a daxil olan məlumatda deyilir ki, onun tikdirdiyi binalardan ev almaq üçün 15-20 faiz ödəniş etmək kifayətdir. Sonrakı məbləği faizsiz, banksiz ödəniş etmək olar.

Məlumatda həmçinin bildirilir ki, İ.Quliyev Ukraynanın paytaxt şəhəri olan Kiyevdə də böyük tikinti başladıb. O, Kiyevdə 75 bloklu yaşayış kompleksi inşa etdirir. Məlumatlı mənbə həmçinin deyib ki, iş adamı Ukraynanın Lvov şəhərində 22 girişdən ibarət yaşayış kompleksinin inşası ilə məşğuldur.

İman Quliyev haqda bir müddət öncə xəbər yayılmışdı ki, sıxışdırılır, biznesinə təhdidlər var. Məlumatlı mənbənin bildirdiyinə görə, iki tanınmış nazirlə qohumluq əlaqələri olan iş adamı bu cür sıxıntıdan qurtarmağın yollarını tapıb. O, hazırda öz fəaliyyətini məşhur generallardan birinin çətiri altında davam etdirir.

Xatırladaq ki, bir müddət əvvəl İman Quliyevin biznesinin sıxışdırıldığı haqda mətbuatda məlumat yayılmışdı. Onun bütün tikinti və ticarət biznesinin çökdürüldüyü deyilirdi. Bunun əsasən ləğv edilmiş Milli Təhlükəsizlik Nazirliyinin o vaxtkı rəhbərliyinin basqısı nəticəsində baş verdiyi deyilirdi. Görünür, Eldar Mahmudov işdən çıxarıldıqdan və MTN çetesi zərərsizləşdirildikdən sonra İman Quliyevin imkanları genişlənib.

❑ Xəbər xidməti

## "Eldar Mahmudov şəhərdə göründü" mesajının sirri...

### Sabiq nazir həbs olunmayacağına dair fikir formalaşdırmağa çalışır

**Sabiq milli təhlükəsizlik naziri Eldar Mahmudovun uzun müddətdən sonra Azərbaycanda görünməsi ilə bağlı yayılan xəbər müzakirə olunan məsələlərdəndir.**



Eldar Mahmudovun personasına maraq bu xəbərin geniş yayılmasına səbəb olub. Məlumatda iddia olunur ki, 2016-cı ilin dekabrında Eldar Mahmudovu Rusiyanın Azərbaycandakı səfirliyi binası yaxınlığındakı yolda "Porsche" markalı avtomobilin içərisində gedərkən görüblər.

Həmin vaxt avtomobili keçmiş nazirin oğlu Anar Mahmudov idarə edirmiş, özü isə ön oturacaqda əyləşərək, söhbət edirmiş. Hətta, Eldar Mahmudov avtomobillə gedərkən, yolda rastlaşdığı keçmiş polis tanışlarından birinə də salam verib. Avtomobildə ötəri söhbət edən Eldar Mahmudov daha sonra deyib ki, hər şey normaldır, heç bir problemi yoxdur.

Bu söhbətin ortaya çıxmasından sonra bir çoxları əminliklə Eldar Mahmudovun həbs edilməyəcəyini deyirlər. Bildirirlər ki, Eldar Mahmudovun şəhərdə maşında gəzməsi, köhnə tanışları ilə salamlaşıb "hər şeyin normal olmasını" söyləməsi düşünülmüş addımdır. Bu yolla sabiq nazir vaxtilə ətrafında olmuş, hazırda da vəzifədə olan şəxslərə mesaj yollayır. Özünün toxunulmaz olduğunu bu cür fəndlərlə cəmiyyətə ötürür. Və bu xəbərin də mediaya çıxmasında onun özünün də maraqlı olduğu qeyd edilir.

Ümumiyyətlə isə E.Mahmudov vəzifəsindən çıxarılandan sonra barəsində ən müxtəlif xəbərlər ara-sıra mətbuatda peyda olub. Məsələn, 2016-cı ilin sentyabrında bir çox mətbu orqanlarda "Eldar Mahmudovu toyda görüblər" sərlövhəli xəbər yayılmışdı. 11 sentyabr 2016-cı ildə yayılan xəbərdə iddia edilirdi ki, E.Mahmudov "AGBank"ın Müşahidə Şurasının sədri Çingiz Əsədullayevin oğlunun toyunda olub.

Sitat: "Gununsesi.info saytını bilgiləndirən mənbə iddia edib ki, "...sabiq MTN şefi yaxın dostu olan "AGBank"ın Müşahidə Şurasının sədri Çingiz Əsədullayevin oğlunun toy məclisində olub. Toy şənliyi "Böyük Saray" adlı şadlıq sarayında təşkil olunub. Qonaqlar arasında əyləşən Eldar Mahmudov toyda təbrik nitqi söyləməyib. Təxminən 2 saata yaxın məclisdə oturan sabiq nazir Çingiz Əsədullayev tərəfindən avtomobilinə qədər yola salınıb".

Sabiq nazirin ölüm xəbəri mətbuatda yer alıb və geniş müzakirələrə səbəb olur. Bu xəbərlərin yayılması bir neçə məqsədə xidmət edə bilər.

Mümkündür ki, xəbərləri Eldar Mahmudova yaxın çevrələr dövriyyəyə buraxsın. Bu halda xəbərin yayılması şantaj xarakteri də daşıya bilər.

Başqa bir versiya Eldar Mahmudovun ölüm xəbərinin ardında toyda, sonradan şəhərdə görünməsi xəbərinin "ildırım sürəti" ilə yayılması sabiq nazirin özünü qorumasına xidmət edir.

Ölüm xəbərinin də geniş yayılması sabiq nazirin fiziki olaraq aradan götürülməsində maraqlı olan qüvvələrin marağından kənar deyil. Mümkündür ki, belə xəbərləri yaymaqla əvvəlcədən ictimai rəy formalaşdırsınlar və ardından da bu məlumat gerçəkləşsin.

E.Mahmudov belə xəbərlərin hansı "mətbəxlərdə və necə hazırlandığını" bilməmiş deyil. Odur ki, özünün sağsalamat olduğunu diqqətə çatdırmaq üçün "toy məclisinə qatıldığını", "şəhərdə gəzdiyini" mətbuata özünün adamları vasitəsi ilə ötürür.

**Bir versiya da istisna deyil; belə xəbərləri kimlərsə sensasiya yaratmaq və oxucu qazanmaq naminə gündəmə gətirir.**

❑ E.HÜSEYNOV

YENİ MÜSAVAT
N 2 (6616) 7 yanvar 2017

**Qaradağ rayonu Səngəçal qəsəbəsi ərazisindəki qaz xəttində bir neçə gün fasilə ilə baş verən ardıcıl iki partlayış ümumilikdə qaz kəmərlərinin təhlükəsizliyi məsələsini gündəmə gətirdi.**

# SOCAR rəsmisi Nazim Səmədzadə qaz kəmərinin partlama səbəblərindən danışdı

## "Kəmərdə deffekt olub, prokurorluq araşdırma aparır"


Nazim Səmədzadə

"Yeni Müsavat" qəzeti olaraq, partlayışın səbəbləri, hadisə ilə bağlı aparılan istintaqın gedişatı və s. bağlı məlumat almaq üçün **SOCAR-ın Qaz İxrac İdarəsinin rəis müavini Nazim Səmədzadə** ilə əlaqə saxladıq. N.Səmədzadə müsahibəsində bəzi nüanslara aydınlıq gətirdi və birmənalı şəkildə terror versiyasını istisna etdi.

***- Nazim müəllim, qaz kəmərində partlayışın baş verməsi ilə bağlı müxtəlif versiyalar var. Sizcə, səbəb nədir?***

- Bu partlayışın heç bir fəsadı olmadı. Çünki 800 metr, bir kilometr aralıdan keçən bir xətdir. Bu xətt 2009-cu ildə tikilib istismara verilib. İndi oradan qaz gedir. Biz bütün sənədləri araşdırma üçün prokurorluğa vermişik. Mənə elə gəlir ki, bu, tikinti vaxtı buraxılan nöqsanların fəsadlarıdır. O boru cırıqlanmışdı. Biz həmin borunun fraqmentlərini də çəkdik və prokurorluğa göndərdik ki, ekspertizaya göndərilsin. Borunun özündə vərəqlənmə gedib. Bu da onu göstərir ki, həmin boru zavodda hazırlanan zaman problemli olub. Ancaq ümumilikdə borular yüksək səviyyədə hazırlanmış borulardır. Bunlar Rusiyada hazırlanan borulardır. Ola bilsin ki, bu boru deffektli olub və o da özünü göstərib. Biz hələ ki tam qərar verə bilmirik. Çünki bütün materiallar istintaqdadır, prokurorluq araşdırır. Bizim baxışlarımız onu göstərir ki, dekabrın 27-də olan birinci partlayış boruda olub və qaynaq hissədən sürüşmə olub. Daha dəqiq səbəb isə araşdırmadan sonra bəlli olacaq.

Bu kəmər 45 atmosfer təzyiqlə sınaq olunub, 7 ildir biz bu kəmərlə 35-40 arası təzyiqlə işləyirik. Birinci partlayış baş verərkən boruda 34 atmosfer təzyiq olub. Yəni, partlayışa səbəb normadan artıq təzyiq olmayıb. İkinci partlayış zamanı 12-18 atmosfer təzyiq olub. Boru qaynaqdan aralanıb. Düşünürük ki, bu, tikintinin fəsadlarıdır.

***- Nazim müəllim, 7 il bir strateji boru xətti üçün elə də böyük istismar müddəti deyil. Bu qədər qısa müddətdə boruda deffektin üzə çıxması hüquq-mühafizə orqanlarının diqqətini çəkdimi? Bu fakt başqa istiqamətlər üzrə də araşdırmalara səbəb olacaqmı?***

- Bu fraqmentləri biz hüquq-mühafizə orqanlarına göndərmişik ki, ekspertizadan keçirsinlər. Nəticələr Fövqəladə Hallar Nazirliyinə göndəriləcək və həmin qurumlar yoxlanacaqlar.

***- Bu hadisə ilə bağlı saxlanılan, həbs olunan varmı?***

- Xeyr. Hələ bunlar araşdırma bitəndən sonra məlum olacaq.

***- Nazim müəllim, bu məslə ilə bağlı terror versiyası da mətbuatın gündəmindədir...***

- Qətiyyətlə deyə bilərəm ki, orada terrorluq bir şey yoxdur.

***- Ümumiyyətlə, qaz kəməri qorunurmu? Mühafizə varmı?***

- Həmin boru tamamilə istismardan çıxarılıb. Orada tədqiqat aparılır. Prokurorluqla bərabər araşdırma aparılır.

***- Bu kəmərdə növbəti belə bir hadisənin baş verməyəcəyinə təminat varmı?***

- Biz kəmərin istismarını tamam dayandırmışıq.

***- Bəs, digər kəmərlərdə?***

- O kəmərlər neçə illərdir ki, tikilib, istismar olunur. Partlayış gözlənilmir.

❑ **Nərgiz LİFTİYEVA**

# Bir il öncəki aksiyalar və islahatlar - nəticə nə oldu?

## "Hazırkı gedişat bu il də sosial gərginliyin yüksək həddə olacağından xəbər verir"

**Ötən ilin yanvar ayında unun və çörəyin bahalaşmasına etiraz olaraq Azərbaycanın ayrı-ayrı bölgələrində etiraz aksiyaları keçirildi. Lənkəran, Astara, Cəlilabad, Siyəzən və digər rayonlarda əhali küçələrə çıxaraq qiymətlərin endirilməsini tələb etdi. Məhz bundan sonra müvəqqəti də olsa unun və çörəyin qiyməti əvvəlki vəziyyətinə qayıtdı. Ən əsası, həmin vaxt hökumət islahatlara başlamaq istiqamətində ilk addım atdı. Bir sözlə, bu etirazlar hökumətin hərəkətə keçməsi üçün ciddi siqnal oldu. Ondan sonra il ərzində çoxsaylı inkişaf proqramları və yol xəritələri müzakirəyə çıxarıldı, müxtəlif qanunlar qəbul olundu. Ən əsası isə gömrükdə monopoliya dayandırıldı.**


Rəşad Həsənov

Bəs görəsən həmin etiraz aksiyaların nəticəsi olan iqtisadi islahatlar hazırda nə vəziyyətdədir və bu bir ildə ölkə iqtisadiyyatına ciddi bir fayda verə bildimi?

"Yeni Müsavat"ın sualını cavablandıran **iqtisadçı ekspert Rəşad Həsənov** bildirdi ki, həmin dövrdə hökumətin qiymətlərə nəzarət siyasəti bir müddət sonra özünü doğrultmadı: "Mən düşünmürəm ki, bu aksiyalardan sonra hökumətin qiymət artımına qarşı apardığı tədbirlərin nəticəsi dayanıqlı oldu. Təbii ki, müəyyən dövr ərzində gündəlik tələbat məhsullarının istehsalçıların və ya distribütorlarına dövlət qurumları tərəfindən təzyiq edilməsi ilə, administrativ üsulla bahalaşmanın qarşısı bir neçə ay alındı. Xüsusilə də may ayının əvvəllərindən etibarən bu nəzarət mexanizmi nisbətən yumşaldıldı. Bundan sonra isə qiymətlər ciddi şəkildə artmağa başladı. Rəsmi rəqəmlərə görə 2016-cı ilin 11 ayı ərzində gündəlik tələbat malları və ərzaq məhsullarının istehlak qiymətlərindən təxminən 17 faizə yaxın artım baş verdi. Bu göstərici rəsmidir, ancaq reallıqda bu daha çox olub. Hətta bəzi məhsullar üzrə bahalaşma 60, 70 faizə, hətta 100 faizə çatdı. Bu isə onu deməyə əsas verir ki, 2016-cı ilin əvvəlində hansısa aksiyaların nəticəsi olaraq hökumət tərəfindən ortaya qoyulan mövqe davamlı nəticələrə səbəb olmadı".

**Ekspertin fikrincə, bu addımların nəticəsiz qalmasının səbəbi inzibati nəzarəti üsulunun bazar iqtisadiyyatı qanunlarına zidd olmasıdır:** "Çünki bu addımların iqtisadi əsası yoxdur. Azərbaycanın müstəqilliyini elan etdiyi dövrdən etibarən inkişaf istiqaməti kimi müəyyənləşdirdiyi bazar iqtisadiyyatı prinsiplərinə uyğun gəlmir. Bazar iqtisadiyyatı prinsiplərinə görə, qiymətlər bazar əsasında formalaşır və bu da tələb-təklif əsasında müəyyən olunur. Əgər biz Azərbaycan kimi idxaldan asılı olan ölkədə devalvasiyanın hazırki sürətlə davam etdiyi dövrdə qiymət artımının qarşısının alınmasından danışırıqsa, bu biznesə marağın azalmasına, idxal səviyyəsinin aşağı düşməsin, son nəticədə isə məhsul qıtlığın gətirib çıxarır. Qeyri-leqal bazarların formalaşmasına, qara bazarlarda qiymət səbəb olur. Bu baxımdan hökumət məcburən müəyyən müddət ərzində sahibkarlıq subyektlərinin haqlı iradları ilə razılaşdı, nəzarət siyasətini yumşaltdı, nəticədə qiymətlər sürətlə bahalaşdı".

**R.Həsənovun sözlərinə görə, hazırki gedişat bu il də sosial gərginliyin yüksək həddə olacağından xəbər verir:** "2017-ci ildə nələrin baş verəcəyini demək çətindir. Hazırda sürətlər qiymətlər artır, insanların sosial problemləri artır. Kommunal xərclər artır. Eyni zamanda problemli kreditlərin həcmi də artır. Bununla paralel olaraq son iki ildə vətəndaşların böyük bir hissəsi ehtiyat məqsədilə yığdıqları vəsaitləri də xərcləyib tükədiblər. Bu məqamda prosesin nə ilə nəticələnəcəyini proqnozlaşdırmaq çətindir. Hökumətin hazırda atacağı addımlar çox məhduddur. Çünki sağlam dayaqlar üzərində iqtisadi tənzimləməni həyata keçirəcək baza yoxdur. Strateji yol xəritələri hazırlansa da, onları həyata keçirmək üçün illərlə vaxt lazımdır. Qısamüddətli dövrdə hansısa nəticənin olacağını demək çətindir. Vəziyyət gündən-günə ağırlaşır. Cinayət xarakterli davranışlar və intiharlar da artır. Sosial xidmətlərdən istifadə aşağı düşür. Bu cəmiyyət və hökumət üçün bir SOS siqnalıdır. Bütün bunlar gərginliyin gündən-günə artmasına işarə verir. Lakin hansı nəticələr doğuracağını əvvəlcədən demək çətindir. Müxtəlif cəmiyyətlərdə müxtəlif sosial qruplar arasında baş verənlərin əks olunması özünü fərqli şəkildə göstərir. Hökumət sosial vəziyyətin yaxşılaşmasına yönəlmiş qısamüddətli və cəld tədbirlər həyata keçirməlidir. Əks halda heç də yaxşı nəticələr gözləmək mümkün deyil".

❑ **Nərgiz LİFTİYEVA**


Vidadi Zeynalov


Beytulla Hüseynov

# "Beytulla Hüseynov kondisionerlərin quraşdırılması zamanı 800 min manatı mənimsəyib"

## "Rabitə işi" ilə bağlı şahidlər ifadə verib; "İşləməyə başladım, arvad da sakitləşdi"...

**Yanvarın 6-da Bakı Ağır Cinayətlər Məhkəməsində Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin (RYTN) 11 keçmiş əməkdaşının cinayət işi üzrə növbəti məhkəmə prosesi keçirilib.**

Musavat.com xəbər verir ki, hakim Əfqan Hacıyevin sədrliyi ilə keçirilən məhkəmə prosesi şahidlərin ifadə verməsi ilə davam etdirilib.

**İlk şahid Həsənov İlqar** olub. O, "P.L.Z" MMC-də direktor vəzifəsində çalışıb. Adı çəkilən MMC nazirliyin aparat rəhbəri olmuş Vidadi Zeynalovun övladlarının adınadır.

Şahid İlqar Həsənov istintaqa ifadə verdiyini, ancaq indi istintaqa ifadəsini xatırlamadığını deyib. O, bunun səbəbini yaddaşında problemlərin yaranması ilə izah edib.

Digər **şahid Səfərov Bəhram** 2011-dən "Azərpoçt" MMC-nin Sumqayıt şöbəsində çalışdığını, 2015-ci ildə işdən çıxdığını deyib. O, istintaqa ifadəsini təsdiqlədiyini deyib.

Növbəti **şahid Rəşadət Gərayzadə** təqsirləndirilən şəxslərdən "Azərpoçt" MMC-nin sabiq baş direktoru Qəmbər Bəybalayevi tanıdığını deyib. Rabitə və Yüksək Texnologiyalar Nazirliyi ilə işləyən bir çox MMC-lərdə müxtəlif vəzifələrdə çalışdığını deyən R.Gərayzadə nazirlik tərəfindən verilən sifarişlərin icrası zamanı görülən işlərin 35 faizə qədər şişirdildiyini söyləyib.

**"Optik qurğular" idarəsinin rəisi Namazalı Məmmədovun bibisi oğlu şahid Həsən Alıyev** deyib ki, rabitə sahəsində görülən işlərlə bağlı qohumuna məxsus şirkətlərdə çalışıb. O, istintaqa verdiyi ifadəsini təsdiq edib.

**Tərtər rayon poçt filialının rəisi Emin Qurbanov** da şahid kimi məhkəməyə gətirilib. O da istintaqa ifadəsini təsdiq etdiyini söyləyib.

**Biləsuvar rayon poçt filialının direktoru Ramil Ağayev** də ifadəsində istintaqa dediklərini təsdiqləyib.

**Şahid Alzamanov Azər** həbs edilənlərdən "Optik qurğular" idarəsinin rəisi Namazəli Məmmədovun yanında mühəndis olaraq çalışdığını deyib.

O, istintaqa ifadəsini təsdiqlədiyini və həbs edilən şəxslərin yaxşı rabitəçilər olduğunu söyləyib.

"Bunlar rabitə sahəsinin qaymaqlarıdır. İndi bilməyib gəlib bura düşüblər. Allah Namazəli müəllimin canını sağ eləsin. 6-7 ay idi işsiz idim. Arvadla dalaşırdıq işsizlikdən. Namazəli müəllim iş verdi, gedib onun yanında işlədim. Mənim də başım dincəldi, arvad da sakitləşdi. İndi namaz qılıb, dua edirəm ki, Namazəli müəllim həbsdən çıxsın, gedim onun yanında işləyim".

Hakim şahidin dediklərinə belə cavab verib: "Deyəsən, yenə arvaddan boşanmaq təhlükəsi var".

Prokurorun sualına cavab verən Azər Alzamanov istintaqda çalışdığı idarədə görülən işlərə görə 600 min manatdan çox dəyəri olan müqaviləyə imza atmasını belə izah edib: "Bəli, imzalamışam. Namazəli müəllim dedi ki, gözün kordur? Mən də imzalamışam. Təsdiqləyirəm".

Şahid Cabir Rəsulov ifadə verərkən onun istintaqa dedikləri ilə məhkəmədə dedikləri arasında ziddiyyətlər olub. "AzEurotel" MMC-nin direktoru olan C.Rəsulov istintaqa deyib ki, "AzEurotel" MMC-nin səhmlərinin 50 faizi əvvəllər "Lukoil Europe" şirkətinə, qalan 50 faizi Rabitə və Yüksək Texnologiyalar Nazirliyinə məxsus idi. Lakin sonradan "Lukoil Europe" öhdəliklərini yerinə yetirə bilmədiyinə görə payından nazirliyin xeyrinə imtina edib.

O, ifadəsində deyib ki, Beytulla Hüseynov BTRİB-in 800 min manatını "AzEvrotel" MMC-nin inzibati binasında kondisionerlərin quraşdırılması adı altında mənimsəyib. Rəsulovun dediyinə görə, sənədlərdə guya binanın bütün kondisioner sisteminin yenilənməsi əksini tapmışdı. Əslində isə heç bir kondisioner-filan quraşdırılmayıb, B.Hüseynov görülməmiş "İşlərə" görə 800 min manatı nazirliyin aparat rəhbəri Vidadi Zeynalova bağlı olan "P.L.Z" MMC-nin hesabına köçürüb, daha sonra oradan nağdlaşdıraraq götürüb.

Ancaq şahid məhkəmədə dediklərini təkzib edərək, kondisionerlərin quraşdırıldığını deyib.

**Şahidin dedikləri ilə bağlı sabiq aparat rəhbəri Vidadi Zeynalov danışıb:** "Yəqin bura gələndə həyəcandan səhv deyirlər. Şahid andı içib, sənədə qol çəkəndə həyəcanlanırlar. Amma işlərin hamısı görülüb. Hələ deyiləndən də artıq iş görülüb, pul xərclənib".

**Məhkəmənin növbəti iclası yanvarın 11-nə təyin edilib.**

Qeyd edək ki, ittihama görə, Vidadi Zeynalov da daxil olmaqla, məhkəmə qarşısına çıxarılan 11 nəfər ümumilikdə 153 milyon 143 min manatlıq mənimsəmə və israf etmədə təqsirli bilinirlər. Cinayət işinin materiallarında yazılıb ki, nazirliyin tabeliyində olan strukturların təmir-tikintisinə, avadanlıqların alınmasına sərf olunmuş məbləğlər şişirdilib, tenderlər formal keçirilib, layihələrin icrası rəhbərliyə yaxın şirkətlərə həvalə olunub.

❑ **İlkin MURADOV**

YENİ MÜSAVAT
N 2 (6616) 7 yanvar 2016

**Ötən ilin son və bu ilin ilk günlərində "Şahdəniz", "Azəri-Çıraq" yataqlarından çıxan, Türkiyə üzərindən Avropaya yön alan magistral qaz kəmərlərində iki güclü partlayış baş verdi. Səngəçalda baş vermiş partlayışların konkret olaraq nədən meydana çıxdığı hələlik açıqlanmayıb.**



# Deputatdan Səngəçaldakı partlayışlarla bağlı mühüm açıqlamalar

## Zahid Oruc: "Artıq bir neçə hadisə baş verib və deməli, biz də terrorun hədəfindəyik"

**Bu gün Azərbaycan hədəf kimi qəbul edən dairələr, qüvvələr var. Həmin dairələr Türkiyə ilə Azərbaycanı birləşdirən vahid kəmərlər üzərindən həm də təhlükələri birləşdirə bilərlər, buna qadirdirlər**

İlkin olaraq hər iki partlayışın qaynaq işlərinin və ya borunun hazırlandığı materialın keyfiyyətinin aşağı olması, kəmərin keçdiyi ərazinin aqressiv və sürüşkən zonada yerləşməsi nəticəsində aşınmaya məruz qalması ehtimalların nəzərdən keçirildiyi bildirilib. Cəmiyyətdə isə partlayışların qəsdən törədilməsi narahatlıqları sezilir.

**Milli Məclisin Təhlükəsizlik və Müdafiə Komitəsinin üzvü Zahid Oruc** mövzunu "Yeni Müsavat" qəzetinə şərh edib. O, olayların qəsdən törədilməsi ehtimalının olmasını inkar etmir:

- Hadisələri ard-arda düzəndə qeyd olunan mənzərə yaranır. Partlayışların mühüm siyasi-iqtisadi dönəmlərə düşməsi, dünyada terror olaylarının bu qədər artdığı zamanda sinxron baş verməsi Azərbaycanda bu hadisələrin mütləq kənar iradə hesabına gerçəkləşdirildiyi ehtimalını yaradır. 2015-ci il dekabrın 4-də "Günəşli" yatağında 30-a qədər insanımızın faciə nəticəsində həlak olmaları, 2016-cı ilin dekabrında açıq dənizdə estakadada köşkün suya düşüb batması ilə nəticələnən olay, ardınca magistral qaz kəmərində 2 dəfə partlayış baş verməsi bir-biri ilə sanki uzlaşır. Ortaya bir tablo çıxır. Amma əlimizdə kəşfiyyat məlumatları da yoxdur deyə, sadəcə ehtimallarımızı söyləyirik. Neft və qaz təsərrüfatı ölkəmizin təkcə qan-damar sistemi deyil, həm də bütövlükdə cəmiyyətimiz də bu estakadanın üzərindədir. Bu, həmçinin təhlükəsizlik simvoludur. Ona qarşı hər hansı bir zərbə vurulursa, təxribat törədilirsə, bu, dövlətin bünövrəsinə vurulan zərbədir. Bu olayların terrorla nə dərəcədə bağlantısının olmasını təhlükəsizlik orqanları daha yaxşı bilirlər. Bununla belə Azərbaycanda son illər ərzində bu cür kənar qüvvələrin müəyyən qədər sistemli fəaliyyəti də inkarolunmazdır. Azərbaycan beynəlxalq proseslərdən kənar deyil.

Suriya qara bayraq altında döyüşmək istəyənlərin meydanına çevrilib və Azərbaycandan da ora gedib döyüşənlər var. Həmin şəxslər döyüşəndən sonra qayıdıb ölkəyə gəlirlər. Amma Suriyada döyüşdükləri terror qruplaşmalarının təsiri altında qalmaqda davam edirlər. Daim onlarla bağlı müxtəlif əməliyyatlar keçirilir. Mümkündür ki, belə şəxslərin vasitəsi ilə bizim üçün strateji önəm daşıyan mühüm iqtisadi sferalara da barmaq uzadılır. Real terror faktı varsa da, cəmiyyətdə xof yaradılmaması üçün görünür dövlət bunun açıqlanmasında maraqlı deyil.

***- 2009-cu il aprelin 30-da Neft Akademiyasında baş verən terror olayından əvvəl - 2008-ci ilin avqustunda ölkədə bir neçə strateji obyektdə partlayış törədilmişdi. Bu haqda mətbuatda ölkədə terror olaylarının baş verməsi haqda yazılar dərc olunandan sonra o dövrdə mətbuat nümayəndələrinə "təşviş, vahimə yaradırsız" fikirlərini çatdıran hüquq mühafizə orqanları rəsmi xəbərdarlıq elan etmişdilər. Yəni olayların cəmiyyətdən gizlədilməsi son nəticədə ADNA terroru kimi bir qanlı olayın meydana gəlməsinə yol açdı. Sizcə, baş vermiş olayları öz adı ilə cəmiyyətə təqdim etmək daha doğru deyil?***

- Cəmiyyət özü hansısa məqamlarda həssaslığını nümayiş etdirəndə, informasiyalı olanda dövlət orqanları ilə birgə sanki layihədə iştirak edirlər. Sonuc etibarı ilə bu, Azərbaycanın hər bir təbəqəsindən olan insanının maraqlarına uyğundur. Çünki qatar relsdən çıxanda içində olan varlıya da, kasıba da, ateistə də, dindara da zərbə dəyir. İndiki situasiyada görünməyən divarın arxasında hansı əllər varsa, bunun cəmiyyətə bildirilməməsi iki məqsədə xidmət edə bilər.

Mümkündür ki, burada izinə düşülməsi istənilən daha böyük terror qrupları var və əməliyyat məlumatları belə hadisələri hələ ki təbii qəzalara yazmağı üstün tutur.

İkinci tərəfdən cəmiyyəti xoflandırmaq ziyana da, xeyirə də işləyə bilər. Türkiyədə son 2 ildə 31 terror olayı törədilib. Bu olayların törədilməsində məqsəd hakimiyyətin terroru törətmiş qüvvə ilə hesablaşmasına nail olmaqdır. Türkiyədə hakimiyyət orqanları vəziyyəti nəzarət altında saxladıqlarını bəyan etsələr də, bu olaylar baş verməkdədir. Bu gün Türkiyədə məhkəmə, ədliyyə, təhlükəsizlik sistemlərində həmin olayları törədənlərlə əlbir olanlar var. İnformasiya sızmalarının baş verməsi son nəticədə belə olayların qarşısının alınmasına mane olur. Azərbaycanda Dövlət Təhlükəsizlik Xidmətinin yenidən təşkili bu hadisələrin izlənməsini, məlumatların düzgün istiqamətdə və dərhal təhlil olunmasını, xalqın, mühüm infrastrukturların təhlükəsizliyinin təmin olunmasını mümkünləşdirir.

Amma artıq bir neçə hadisə baş verib və deməli, biz də terrorun hədəfindəyik. İsrailin bu gün çox mütərəqqi təhlükəsizlik modelləri var. Bu model təhlükəsizlik, kəşfiyyat orqanlarının ölkə insanları ilə işləməsindən də keçir. Antiterror Mərkəzi hər ölkədə, Azərbaycanda da güclü bir struktura çevrilməlidir. Bu struktur terror şəbəkələrinə zərbə vurmaq üçün vacibdir. Zaman bunu tələb edir. Bu gün 100 minlərlə nizami orduların işini çox məhdud qruplar həyata keçirə bilir. Bu, müharibənin yeni formasıdır. Ona görə də düşməni səngərdə aydın gözlə gördüyümüzə sevinirik, çünki görünməyən düşmənlə döyüşmək daha çətindir. Azərbaycanda neft kəmərləri, su hövzələri, digər infrastrukturların qorunması üçün belə mərkəzlərin güclü fəaliyyəti olmalıdır.

***- Magistral qaz kəmərlərində partlayışlar Azərbaycanın Gürcüstanda böyük qaz anbarının tikintisinə tender iştirakçısı olaraq qatılması, 2-3 ildən sonra Avropanın önəmli qaz təchizatçısından birinə çevrilməsi ərəfəsində baş verir. Magistral qaz kəmərlərində 6 gün fərqlə, eyni məkanda partlayışların baş verməsini rəsmilərin aşınmadan, torpaq sürüşməsindən meydana gəlməsini söyləməsi ölkə olaraq bizim etibarlı tərəfdaş ola biləcəyimizi şübhə altına almır ki?***

- İndiki reallıqda mühüm strateji obyektlərdə gerçəkdən təbii hadisələrin baş verməsi nəticəsində yaranan qəza belə özlüyündə mahiyyətindən çıxır, çərçivəsini aşır. Burada kənar təsir varsa, bu, bizi ikiqat təsirləndirməlidir. "Bakı-Ceyhan" neft kəməri Türkiyə ərazisində həyata keçirilən bir neçə terror olayı nəticəsində partladılmışdı. Bunu o dövrdə PKK üzərinə götürmüşdü. Bu olayları sifariş vermiş qüvvələri də təyin etmək çətin deyildi. Qlobal neft-qaz savaşı, belə kəmərlərin keçdiyi ərazilərdə dava, müharibə tarixə yazılmaqdadır. Azərbaycan qaz resursu ilə dünya bazarına çıxır və belə olan təqdirdə hətta partlayışların öz-özünə baş verdiyini qəbul edənlər də Azərbaycandan tərəfdaş kimi narahat ola bilərlər. Bu baxımdan 2017-ci il Azərbaycan üçün ən çox təhlükəsizliyi ilə əlamətdar olmalıdır. Bu o demək deyil ki, ölkədə iqtisadi, bank-maliyyə sektorunda həyata keçirilməli olan tədbirlər ikinci plana keçirilməlidir. Hər bir sosial məsələ təhlükəsizliyin mühüm komponentidir. Bu gün Azərbaycan hədəf kimi qəbul edən dairələr, qüvvələr var. Həmin dairələr Türkiyə ilə Azərbaycanı birləşdirən vahid kəmərlər üzərindən həm də təhlükələri birləşdirə bilərlər, buna qadirdirlər. Azərbaycanın təhlükəsizlik orqanlarının konseptual yanaşmaları olmalıdır. Bəzən siyasi baxımdan yaranan gərginlikdən doğan ab-hava belə terroru duymağa, növbəti addımların nə ola biləcəyini proqnozlaşdırmağa və qarşı addımların atılmasına imkan verir. Azərbaycanın təhlükəsizlik orqanlarına güvənərək düşünürük ki, 2017-ci il bu baxımdan sabit olacaq.

***- Vaxtilə Milli Təhlükəsizlik Nazirliyində məhz energetika sahəsində təhlükəsizliyə cavabdeh olan general Akif Çovdarov idi. Bu gün o, məhkəmə qarşısındadır. Onun təmsil etdiyi qrupun maraqları baş vermiş hadisələr şəklində ifadə oluna bilərdimi?***

- Bu da versiyalardan biridir. Hazırda həmin şəxs ətraf aləmdən təcrid olunub, xüsusi rejimdə saxlanılır. Əlbəttə, nəzərə alınır ki, o, çox mühüm informasiya daşıyıcısıdır. Onun son addımları, mesajları da dövləti şantaj etməyə yönəlib. Onun vaxtilə enerji sektoruna nəzarət etməsi də diqqətə alınmaqla, hansısa "minaların" partladılması o adamın həbsxanada belə güclü göstərilməsinə xidmət edir. Məsələnin bu cür qoyuluşu ilə razı deyiləm.

❑ **E.MƏMMƏDƏLİYEV**

# SOCAR-ın Türkiyədəki törəməsi İstanbul birjasının lideri oldu

**2016-cı ildə İstanbul birjasında xarici investorlar 614 mln. dollarlıq alış gerçəkləşdirib. "APA-Economics" "Anadolu" agentliyinə istinadən xəbər verir ki, xarici investorlar ilin 4 ayında satış, 8 ayında isə alış həyata keçirib.**

2016-cı ilə alışla start verən xarici investorlar may ayınadək ümumilikdə 1,8 mlrd. dollarlıq əməliyyat aparıb. May ayından etibarən isə investorlar ABŞ-ın Federal Ehtiyat Bankı (FED) tərəfindən uçot dərəcəsinin artırılmasını nəzərdən keçirib və sürətli şəkildə satışlara başlayıb. 3 ay davam edən bu proses nəticəsində xarici investorlar ümumilikdə 1,4 mlrd. dollarlıq satış həyata keçirib.

Xarici investorlar dekabr ayında daha çox bank səhmlərinə yatırım edib. Buna paralel olaraq, ilin son ayında xarici investorlar sənaye şirkətlərinin hissələrindən "canını qurtarıb".

Dekabr ayında ən çox maraq göstərilən qiymətli kağızlar "HalkBank"ın səhmləri olub. Eyni zamanda, ən çox satılan SOCAR-ın törəmə müəssisəsi olan "Petkim Petrokimya Holding A.Ş."-nin ("Petkim") səhmləri olub. Dekabr ayında "Petkim"in 16,9 mln. dollarlıq səhmi satılıb.

YENİ MÜSAVAT
N 2 (6616) 7 yanvar 2016

**2017-ci ilin ilk iş günündən banklar hesablardan çıxarılan vəsaitdən əlavə bir faiz həcmində vergi tutur. Sadələşdirilmiş vergi adına tutulan məbləğ sonra yaranacaq sadələşdirilmiş vergi borcu ilə əvəzləşdirilmir. Bəzi ekspertlər bunun büdcə kəsirini doldurmaq üçün növbəti cəhd kimi dəyərləndirirlər. Bildirilir ki, sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslər yanvarın 1-dən hesablarındakı pulu nağdlaşdırmaq üçün 1 faiz sadələşdirilmiş vergi ödəməlidirlər.**

# Banklardan çıxarılan vəsaitə əlavə vergi - gizli iqtisadiyyata dəstək...

## Ekspertlər durumu izah edirlər; "Vətəndaşlar çalışacaqlar ki, belə əməliyyatları bankdan kənar aparsınlar"




Bu, hüquqi şəxslərə aiddir. Hüquqi şəxslər əvvəllər hesablarından pul çıxararkən 1 faiz nağdlaşdırılmaya görə komissiya haqqı ödəyirdilər. İndi həm komissiya haqqı, həm də 1 faiz sadələşdirilmiş vergini ödəyəcəklər. Bu, Vergi Məcəlləsinin artıq qüvvəyə minmiş 150.1.12-ci maddəsinə əsasən edilir. Buna əsasən, yerli banklar, xarici bankın Azərbaycan Respublikasındakı filialı və ya poçt rabitəsinin milli operatoru tərəfindən hüquqi şəxslərə və fərdi sahibkarlara bank hesablarındakı pul vəsaitlərinin nağd qaydada verilməsi həyata keçirilərkən ödəmə mənbəyində vergini tutulmalıdır.

Ekspertlər isə musavat.com-a bildiriblər ki, bu dəyişiklik vətəndaşlara və bank sisteminə müsbət heç nə vəd etmir, əksinə, bu sahədəki duruma mənfi təsir göstərəcək. **Ekspert Qubad İbadoğlu**nun sözlərinə görə, dəyişiklik sırf fiskal məqsədlədir: "Düzdür, bunu nağdsız dövriyyəni genişləndirmək istəyi ilə əlaqələndirirlər, amma nağdsız dövriyyəni başqa vasitələrlə də genişləndirmək imkanları vardı. Gizli iqtisadiyyatı leqallaşdırmaqla, eyni zamanda, nağdsız dövriyyəni stimullaşdırmaqla, stumullaşdırıb genişləndirməklə bunu etmək olardı. Bu, daha düzgün yanaşma idi, nəinki nağd dövriyyəyə belə məhdudiyyətlər qoymaq. Baş verənlər, bu verginin tətbiqi ilə əlaqədar baş verənlər həm bankların, həm sahibkarların, həm də vətəndaşların ziyanınadır, çünki əlavə məsrəfi vətəndaşlar və sahibkarlar ödəyəcək. Banklar isə burada qazanc əldə etməyəcəklər, çünki bu, bank xidmətlərinin azalmasına gətirib çıxaracaq. Banklar azdan-çoxdan nağdlaşdırma xidmətindən qazanırdılar, onu da itirəcəklər. Çünki artıq vətəndaşlar çalışacaqlar ki, belə əməliyyatları bankdan kənar aparsınlar. Bankdan kənarda olan əməliyyatların sayı yüksəkdir. Bu, sırf fiskal xarakterli qərardır, nağdsız dövriyyəni genişləndirmək üçün verilməyib, gizli iqtisadiyyatın da genişlənməsinə gətirib çıxaracaq".

**Ekspert Natiq Cəfərli** isə musavat.com-a qeyd edib ki, bu, Vergi Məcəlləsinə edilən dəyişikliklərlə əlaqədardır: "Vergilər Məcəlləsinə bir gündə 200-dən çox dəyişiklik edildi, 200-ün içərisindən 150-si yeni maddələr idi. Bununla bağlı normal izahat da olmadı ki, maddələr nə ilə bağlıdır, nə üçün bu dərəcədə kəskin dəyişikliklərə gedildi? Dəyişikliklərdən biri də bank sistemində olan dəyişikliklərdir. Əlavə vergilərin tətbiqi ilə bağlıdır, əslində büdcə ilə əlaqəli deyil. Banklarda olan vəziyyəti, bankların çox ağır durumunu nəzərə alaraq, əlavə gəlir yerləri yaradılması üçün nəzərdə tutulub.



Banklardan cəmi ikisi dövlətə məxsusdur. Digərləri özəl banklardır. Adı özəl olsa da, hamımıza məlumdur ki, bankların böyük əksəriyyəti iri, vəzifəli məmurlara bağlı banklardır. Yəni bankların vəziyyətində müəyyən dəyişiklik etmək üçün, qazanclarını artırmaq üçün belə bir vergi tətbiqinə getdilər. İlk baxışdan bir faiz elə ciddi bir məbləğ sayılmır. Amma nəzərə alsaq ki, il ərzində banklardan milyonlarla əməliyyat keçir, bunların hamısından bir faiz tutulsa, kifayət qədər böyük bir məbləğ alınacaq. Bankların guya indiki düşdüyü ağır durumda onlara kömək üçün hökumətin atdığı addımlardan biridir. Əsas yenidən baxış bucağı və yanaşma budur ki, əsas yük bütün digər sahələrdə olduğu kimi, burada da vətəndaşın çiyninə qoyulur, əlavə vergi yükü gətirilir". Onun sözlərinə görə, bu 1 faiz sadələşdirilmiş 4 faizlik vergi borcu ilə əvəzləşdirilmir: "Bunun o 4 faizlik vergi borcuna aidiyyəti yoxdur, 4 faiz dövriyyədən verilən vergidir".

❑ **RÖYA**

# Mərkəzi Bankın seçəcəyi iki yol - manatı neyləyək?

## Ekspertlər bildirirlər ki, milli valyuta kəskin ucuzlaşmasa da, vəziyyət yaxşı deyil...




**Milli valyutamızın 2017-ci ilin ilk günlərindən kəskin ucuzlaşacağı ehtimal edilsə də, bu, baş vermədi. Amma əksər ekspertlərin proqnozuna görə, hökumət kəskin devalvasiyaya getməklə dollarla bağlı duruma əncam çəkəcək. Qeyd edək ki, ölkədə iki aydan artıqdır ki, dollar satılmır, bankların dollar satmaması da "qara bazar"ı genişləndirib. Artıq rəsmi və qeyri-rəsmi məzənnə arasında ikirəqəmli bir fərq yaranıb. "Qara bazar"ın qarşısını almaq isə mümkün deyil. Bununla bağlı aparılan həbslər isə bir imitasiya təsiri baöışlayır. Ekspertlər manatımızın qısa vadədə necə "üzəcəyini" musavat.com-a açıqlayıblar.**

**İqtisadçı Natiq Cəfərli** musavat.com-a bildirib ki, tam üzən məzənnəyə keçid Azərbaycanda mümkün deyil: "Bunun üçün alt yapı, institusional dəyişikliklər olmalıdır. Bazarda çoxlu sayda oyunçular olmalıdır, bu isə yoxdur. Ona görə də Azərbaycanda adının nə qoyulmasından asılı olmayaraq, hələlik tənzimlənən məzənnə olacaq. Hərracların özlərinin metodologiyası belə bunu deməyə əsas verir. Çünki tələb və təklif arasında fərq o qədər böyük olur ki, tam üzən məzənnəyə keçilsə, hər hərracda manatın oynaması onlarla faizlə ölçülə bilər. Gün ərzində elə hərrac ola bilər ki, birdən-birə manat 30-40 faiz, hətta 50 faiz dəyər itirsin. Ona görə də hələ ki, tənzimlənən məzənnə rejimidir. Azərbaycanda bu il ən böyük problem bu il, məhz bazarda oyunçuların sayının məhdud olmasıdır. Yəni dollar satan bircə Neft Fondu olacaq və onun büdcə qarşısında öhdəliklərini nəzərə alsaq, hərraca təqribən dörd milyarddan bir az yuxarı valyuta çıxara biləcək. Digər ikinci bir oyunçu yoxdur ki, üzən məzənnə rejimi tətbiq edilsin. İkinci oyunçunun olması həm üzən məzənnə rejimini tətbiq etməyə, həm də bir az manatın rahat nəfəs almasına şərait yaradar. Ona görə də düşünürəm ki, bu il manatın məzənnəsi necə adlandırılmasından asılı olmayaraq, Mərkəzi Bank tərəfindən tənzimlənəcək".

**Ekspertin fikrincə, Mərkəzi Bankın atdığı son addımlar onu deməyə əsas verir ki, qurum manatın məzənnəsinin kəskin dəyərdən düşməsinə imkan vermək istəmir:** "Çünki bank sistemində olacaq tələtümləri göz qarşısına alaraq, qiymət artımının sürətlənməsini nəzərə alaraq, düşünürəm ki, Mərkəzi Bank hələlik yumşaq şəkildə, gündəlik hər hərracda manatın dəyərdən düşməsini təsdiqləyərək bu addımı atacaq, məzənnəni müəyyən edəcək. Amma bir iş də var ki, uzun zaman belə davam edə bilməz. Çünki artıq rəsmi məzənnə bir formallığa çevrilib. Əsas məsələ dollara çıxış imkanlarının məhdudlaşdırılmasıdır. İndi ölkədə iş adamlarını, vətəndaşları əssas maraqlandıran məsələ sərbəst şəkildə valyutanın alqı-satqısının həyata keçirilməsidir. Mərkəzi Bankın əsas vəzifəsi sərbəst şəkildə valyuta dövriyyəsini yenidən bərpa etməkdir. Əks halda, "qara bazar" daha da çiçəklənəcək, "qara bazar"ın müxtəlif formaları meydana çıxacaq. Bu isə "qara bazar"da olan məzənnə ilə rəsmi məzənnə arasında aranın açılmasına, fərqin böyüməsinə səbəb olacaq. Çox təəssüf ki, bu yol uzun illərdir Özbəkistanda, son bir ildə isə Türkmənistanda aparılan siyasətlə eynidir. Özbəkistanda son on beş ildir ki, rəsmi məzənnə ilə real məzənnə arasında iki dəfədən çox fərq var. İndi Türkmənistanda da eyni vəziyyətdir. Rəsmi məzənnə ilə real bazar məzənnəsi arasında iki dəfədən artıq fərq yaranıb. Azərbaycan da çox təəssüf ki, Mərkəzi Bankın atdığı addımlar bu yöndə getməsinə işarə edir. Artıq rəsmi məzənnənin neçə olması o qədər önəmli deyil. Dollara çıxış imkanları məhduddursa, banklar dollar alıb satmırsa, əsasən satış həyata keçirmirsə, rəsmi məzənnənin neçə olması o qədər önəm kəsb etmir. Artıq əsas məsələ valyutaya çıxış imkanlarıdır. Bu nöqteyi-nəzərdən Mərkəzi Bankın seçimi də o qədər çox deyil. Ya Mərkəzi Bank dörd faizlik marjı ləğv etməlidir, banklara icazə verməlidir ki, istədiyi qiymətə alış və satış həyata keçirsin. Bu zaman "qara bazar" avtomatik ləğv oluna bilər. "Qara bazar"a inzibati yolla qalib gəlmək mümkün deyil. Ya marja görürülməlidir, ya da hərraca daha çox valyuta çıxarılmalıdır. Hələlik daha çox valyuta çıxarmaq imkanları məhduddur, çıxarılacaq dolların həcmi məhduddur. Ona görə də çox güman Mərkəzi Bank məcbur olacaq ki, bir müddət sonra 4 faizlik marjı ləğv etməyə və banklara daha çox sərbəstlik verməyə məcbur olacaq. Bu, baş verməsə, "qara bazar"ın çiçəklənməsi daha da artacaq. Bu isə həm ölkə iqtisadiyyatına daha çox ziyan vurur, həm qiymət artımını sürətləndirir, həm də iş adamlarının çəkindirir. Həm xarici, həm yerli iş adamlarını Azərbaycanda iş görməkdən çəkindirir. Ona görə məhz bu iki yoldan birini tezliklə Mərkəzi Bank seçməlidir".

❑ **R.RƏFİYEVA**

YENİ MÜSAVAT
N 2 (6616) 7 yanvar 2017



# Burun dəsmalı

Zamin HACI
zaminhaci@gmail.com

**Keçmiş MTN cinayət işində soyulan adamların daha bir qrupunun adları açıqlanıb, siyahı o qədər uzun idi ki, bir ucu bəlkə Lələtəpəyə çatırdı. Azı 160 nəfərin adını saya bildim, ondan sonra kalkulyatorum sındı, barmağımdan isə tüstü çıxdı.**

Hələ bunlar general Sübahir müəllimlə general Teymur müəllimin qapazladığı adamlardır, general Çovdarov müəllimin yolduqları ayrı siyahıdır. Toyda "Qız evi", "Oğlan evi" qutuları olan kimi, bizim dövlət qurumlarında da hər generalın öz qutusu, dəftəri olur. Bəs görəsən rəhbərliyi altında bu qədər cinayət törədilən nazir Eldar müəllimi niyə sorğulayan yoxdur, çağırıb gözün üstdə qaşın, quldurluqda yoldaşın, türmədə qohum-qardaşın (qafiyə üçün yazmadım, Beynəlxalq Bankın şefi, həbs edilmiş Cahangir müəllim Eldar müəllimin qudasıdır) var demirlər? Çox əcaib məntiqdir. Almaniyada yaşayan reperin "yutub"a qoyduğu mahnısına görə anasını və başqa qohum-əqrəbasını idarəyə çağırıb izahat alırlar, ancaq rəhbərliyi altında yüzlərlə insan soyulmuş administrativ bandit kef çəkir. Qanun qarşısında hamı bərabər idi, deyəsən. Ya da bəziləri "daha çox bərabərdir"? Bəlkə qanunsuzluq qarşısında hamımız bərabərik? Yox. Heç bu da bizdə işləmir. Bəzilərinə qarşı qanunsuzluğu daha şiddətlə edirlər, bəziləri isə yüngülvari şapalaqla canını qurtarır.

Burada yapistlərin hakimiyyətə gələndən bəri daim ictimai leksikonda fırlatdığı "Axı sən nə istəyirsən?" sualının da yeri var. Gərək insanlar öncə bunu müəyyənləşdirsinlər, iqtidara qarşı, ya da iqtidarla birgə davranışlarını istəklərinə uyğunlaşdırsınlar. Bu mənada, yapistləri hətta demokratik hakimiyyət də saya bilərik: hər kəsə istədiyini verirlər. Zindan istəyirsən, ürəyində bunu tutubsansa, buyur, dərhal hazırdır. Bir işverən, 3 manat pul, beş qram nəşə, bir kəllə qənd... Yox, qənd artıq oldu deyəsən. Hər halda qalsın - qoy indən belə siyasi dustaqların yaradılması sisteminə şirinlik də qatılsın. Ağız dadıyla yeyək. İstədiyin yar idi, yetirdi pərvərdigar. Bunlar yeyib doyublar, əşşi...

Yox, əgər istəsən sənə mükafat, təqaüd, mənzil ayırırlar. Özü də bunlar vətənin, dövlətin mükafatlarıdır. Bizim özümüzün malımızdır. Burda heç bir pis hal yoxdur. Dövlətlə hakimiyyəti ayırmaq lazımdır. Qarpız giləmeyvə deyil, balqabaqkimilər fəsiləsinə aiddir. Fındıq isə botanika elmində qoz sayılmır, bunu da biləsiniz. Fındıq orada tozağacıkimilər fəsiləsinə daxildir. Eynilə qızılağac kimi. Yüz faiz əminəm ki, çoxunuz fındıq yeyəndə bunları bilmirdiniz. Halbuki bilmək lazımdır. Gərək adam nə yeyib-içdiyinə fikir versin. Əks halda qrip olursan, öskürürsən. Respublikanın baş epidemioloqu İbadulla müəllim demişkən, hər kəs zəhmət çəksin fırtığını özü silsin. Dövlətin daha vacib işləri vardır.

Misal üçün, dövlət Biləsuvarda elektrik işığı tələb edib polislə cırmaqlaşan cəbrayıllılara həbs kəsibdir, heç buraxmaq da istəmir. Millət isə bütün hirsini deputat Astan müəllimə tökəndən sonra sakit olub, heç vecinə deyil ki, o həbs edilən etirazçıların axırı necə olacaqdır. Əsas prosesdir, nəticəsi bizi çox da narahat eləmir. Bir çoxuşaqlı kişi varmış, bir gün kasıbçılıq üzündən arvadla dalaşır, vurur onu öldürür. İş gəlir məhkəməyə, hakim deyir ki, adə, sən bu qədər uşağı əkəndə heç fikirləşmirdin bunlar nə yeyib-içəcəkdir, necə yaşayacaqdır? Kişi deyir, möhtərəm hakim, bilirdim e, ancaq proses maraqlı idi.

Sonda Allahşükür müəllimə demək istərdim ki, ürəkli olsun, hərdən fətva-zad versin, respublikamızın idman şərəfini qorusun. Yoxsa görürsən hansısa suriyalı molla səfehləyir, Qarabağı erməni torpağı adlandırır, bizdən cavab eşidilmir. "Sən niyə susursan" filminin remeykində çəkilmək uca şeyximiz üçün gec deyilmi? Təcili cavab atəşi lazımdır. Bütün yas mərasimlərində həmin suriyalı mollanı lənətləyən qarğışlar da oxunmalıdır. Yoxsa idarə artıq turizm şirkətinə bənzəyir.

# 2017-nin gözləntisi: Rusiya tərəfləri sülhə məcbur edəcək?




# Qarabağda müharibə qərarını... Kreml verəcək - yeni ssenari

## Analitiklərdən maraqlı iddialar var; Rusiya nəşri: "Münaqişə dondurulub, ancaq əbədi şəkildə belə qala bilməz"; rusiyalı ekspert: "Azərbaycan ərazilərin itirilməsi ilə heç vaxt barışmayacaq...."

**2017-ci il böyük ehtimalla Qarabağ konflikti ətrafındakı situasiyaya da xeyli aydınlıq gətirəcək. Çünki əvvəla, məhz bu il münaqişəyə cəlb olunmuş böyük güclər - Rusiya və ABŞ arasında münasibətlər Trampın prezident qismində fəaliyyətə başlaması ilə yeni keyfiyyət çalarları qazanacaq. Eyni zamanda qardaş Türkiyənin Moskva ilə əlaqələrinin və strateji işbirliyinin pik həddə yaxınlaşacağı gözlənilir ki, bu da Güney Qafqaz bölgəsinə təsirsiz ötüşə bilməz.**

Əsas sual da bundan ibarətdir ki, önümüzdəki ildə Dağlıq Qarabağla bağlı proseslərin hansı inkişaf ssenari daha real və mümkün görünür? Bu xüsusda ekspert dairələrinin rəyləri birmənalı deyil. Məsələn, rusiyalı tanınmış **politoloq Aleksandr Skakov** hesab edir ki, ən ehtimal edilən ssenari - "nə hərb, nə də sülh" vəziyyətinin davam etməsi olacaq. Musavat.com-un məlumatına görə, bu barədə o, news.am erməni nəşrinə müsahibəsində danışıqlar prosesinin perspektivini şərh edərkən deyib.

"Hamı bilir ki, Dağlıq Qarabağa dair sülh nizamlanmasının hansı ssenarisi ola bilər. Lakin bu ssenari münaqişə tərəflərindən heç birini qane eləmir. Tərəflər hansısa kompromisə hazır deyil. Onları buna məcbur eləməklə bağlı istək də heç kəs də yoxdur. Ermənistan, ələlxüsus "DQR" Dağlıq Qarabağ ətrafındakı rayonların hətta bir qismini belə azad eləmək haqda düşünməyə hazır deyil. Bakı isə "DQR"in müstəqil statusu barədə düşünməyə belə hazırlaşmır", - deyə politoloq qeyd edib.

**Onun sözlərinə görə, hazırda münaqişə tərəfləri fəlakətli dərəcədə bir-birinə etimad eləmir:** "Ümumilikdə düz də edirlər. Ona görə də ən ehtimal edilən ssenari - "nə hərb, nə də sülh" vəziyyətinin davam etməsidir, nədən ki, irimiqyaslı müharibə ilə konfliktin donunun açılması proqnoz edilməyən nəticələrə gətirə bilər. Yəni status-kvo hər iki tərəfi qane eləmir, ancaq heç kim bütün münaqişə tərəflərini, yaxud heç olmasa, onlardan birini qane edəcək yeni status yaratmayacaq", - rusiyalı analitik əlavə edib.

***

Bu arada Kremlin rəsmi kursunu təbliğ edən newsinfo.ru adlı Rusiya saytında Qarabağ münaqişəsinə dair məqalə dərc olunub. Məqalədə Rusiyanın tərəfləri sülhə məcbur edəcəyi göstərilir, eyni zamanda bunu nə zaman və hansı şərtlər daxilində həyata keçirəcəyi də vurğulanır (Virtualaz.org).

Müəllifin qeydlərindən belə başa düşmək olur ki, Qarabağ məsələsi tamamilə Rusiyanın inhisarında, nəzarəti altında olan münaqişədir və bu münaqişəni ancaq Rusiyanın təşəbbüsü və qarantiyası ilə həll etmək olar. Rusiya məhz onun tərəfində atəşkəsin saxlanılması üçün Azərbaycan və Ermənistana, məqalədə deyildiyi kimi, "artıqlaması ilə təsir imkanlarına" malikdir.

Məqalə müəllifi Vitali Kokorin hesab edir ki, münaqişə dondurulub, ancaq əbədi olaraq belə davam edə bilməz. Ona görə ki, Azərbaycan ərazilərin itirilməsi ilə heç vaxt barışmayacaq, Ermənistan isə daim bu cür müharibə gözləntisi altında yaşaya bilməz. "İnsan və maddi resurslar baxımından üstünlüyün birmənalı olaraq Azərbaycanın tərəfində olduğu nəzərə alınarsa orta perspektivdə Bakının revanş şansı artır. Digər tərəfdən müharibə və ya sülh məsələsi ancaq İrəvanla Bakıdan asılı olsaydı, müharibə iki respublikanı çoxdan məhv etmişdi. Şükür Allaha ki, onların hər ikisi Rusiyanın geosiyasi təsir zonasındadır. Bütün bu müddət ərzində Rusiya Qarabağda atəşkəsin başlıca qarantı olub, həm Bakı və İrəvanla iş aparmaqla, həm Ermənistanda hərbi baza saxlamaqla" - müəllif yazır.

Onun fikrincə, Rusiya Ermənistan-Azərbaycan məsələsində seçim qarşısında deyil. Çünki hər iki ölkə tarixən Rusiyaya bağlıdır. Və tammiqyaslı müharibə başlaya bilməz, çünki Ermənistan aldığını alıb və müharibəni təzədən başlamaq istəmir, Azərbaycan isə başa düşür ki, Rusiya ona tam gücüylə döyüşməyə imkan verməyəcək. Məqalə müəllifinin iddiasına görə, əslində müharibənin başlamasında Rusiyanın "okeanın o tayındakı düşmənləri" maraqlıdır. Ona görə ki, Baltik dənizindən tutmuş Xəzərə qədər "antirusiya zolağı" yaratmaqda, Azərbaycanı Rusiyanın təsir zonasından çıxarmaqda maraqlıdırlar.

"Lakin Bakıda müstəqil siyasət yürüdən və özgələrin oyununa meyl etməyən İlham Əliyev hakimiyyətdədir. Ermənistan-Azərbaycan müharibəsini başlatmaq üçün Bakıda hakimiyyətə antirusiya mövqeli prezident gətirmək lazım gəlir, buna da Amerikanın gücü çatmaz" - məqalədə vurğulanır. Məqalədə daha sonra deyilir ki, Türkiyə də Qarabağda müharibənin başlanmasında maraqlı deyil. Hərçənd Türkiyə Azərbaycan məsələsindən Rusiyaya qarşı oynamaq üçün istifadə etməyə çalışır, ancaq Putinin diqqətini Qarabağda müharibə kimi "baha qiymətə cəlb etmək" istəməz.

"Rusiyanın isə mövqeyi aydındır - bizə Zaqafqaziyada (*Cənubi Qafqaz-red.*) heç bir müharibə lazım deyil. Və eynilə belə müharibə ilə hədələyərək Rusiyanı şantaj etmək də yolverilməzdir, hansı ki, xarici oyunçular buna stavka edir. Göstərmək istəyirlər ki, Rusiya Ermənistanı dəstəkləsə, Azərbaycan Qərbə meyl edəcək, bitərəf qalsa, Ermənistan Rusiyanın təsirindən çıxacaq. Bu primitiv hesablamalar çoxdan aydındır və faydasızdır. Rusiyanın siyasəti məhz bundan ibarətdir ki, Qarabağ məsələsinin üçüncü qüvvələr tərəfindən istifadə edilməsinə yol verməsin. Hazırda Azərbaycan və Ermənistan bütün yollarla atəşin dayandırılmasına və sülhə məcbur edilməlidir, hansı ki, Kreml elə bununla məşğuldur. Rusiyanın tərəflərə təsir imkanları bunun üçün artıqlaması ilə bəs edir. Qarabağ məsələsinin həlli üçün isə zaman və Rusiyanın iştirakı lazımdır" - müəllif sanki Kreml strateqlərinin düşüncələrini ifadə edirmiş kimi bildirir.

*Bəs, Rusiya nə vaxt bu münaqişəni həll etmək fikrinə düşəcək?* Münaqişəni daha nə qədər bu cür dondurulmuş vəziyyətdə saxlayacaq? Məqalə müəllifinə görə, Rusiya gec-tez bu işlə məşğul olacaq, ərazilərin "mübadiləsi", kompromislər, qaçqınların qayıtması məsələsinin həlli, əlbəttə ki, Rusiyanın nəzarəti altında və təhlükəsizlik təminatı ilə baş verəcək. Bunun üçün isə postsovet respublikalarında hərbi, iqtisadi baxımdan reinteqasiya prosesləri dərinləşməli, hər iki respublikanın Moskvaya etimadı artmalıdır. Başqa sözlə, müəllif eyham edir ki, Moskva Qarabağ münaqişəsinin həlli ilə Azərbaycanın və digər keçmiş sovet respublikalarının təzədən Rusiyanın hərbi-iqtisadi orbitinə qayıtmasından sonra məşğul ola bilər...

***

Rusiyalı analitiklərin qeydlərindən belə qənaət hasil olur ki, Kreml bu il də "Qarabağ açarı"nı öz əlində möhkəm saxlamaq niyyətindədir. Lakin bu "açar"dan nəhayət, onun istifadə edib-etməyəcəyi bəlli deyil.

**Bir şeyi əminliklə söyləmək olar ki, bu il Rusiya konfliktin həllində hansısa irəliləyişə zəmin yaratmaq zorundadır. Əks halda, situasiya onun əleyhinə inkişaf edə, ən azından lokal hərbi əməliyyatlar intensivləşə bilər. Çünki Moskva sonsuz şəkildə və sırf öz maraqları naminə tərəfləri atəşkəsə məcbur edə, Azərbaycan ərazilərinin işğal altında qalmasını iqnor edə bilməz. Yəni, Qarabağda sülh, yoxsa müharibə qərarını istəsə də, istəməsə də, faktiki şəkildə Kreml verəcək.**

❑ **Analitik xidmət**

YENİ MÜSAVAT
N 2 (6616) 7 yanvar 2017

# Türkiyə-NATO incikliyi nə vəd edir; İncirlikdən imtina, yoxsa....

## Şahin Cəfərli: "Türkiyə İncirlik kartını və digər təsir "rıçaq"larını ortaya qoyaraq, əvəzində ABŞ-dan istədiklərini əldə etməlidir"

**15 iyul dövlət çevrilişinə cəhddən sonra Ankara-Vaşinqton, paralel olaraq Türkiyə-NATO münasibətləri soyumaqda davam edir. Üstəlik, qardaş ölkəyə qarşı çeşidli terror əməliyyatları həyata keçirən İŞİD və PKK-nın qolu olan YPG-nin arxasında Qərb dünyasındakı güclərin dayanması Ankaranı strateji seçiminə yenidən baxmağa vadar edir.**

Bu günlərdə açıqlandı ki, Türkiyə hökuməti, Amerika və NATO hərbi hava qüvvələrinin Suriya və İraqda İŞİD terror qruplaşmasına qarşı istifadə etdiyi İncirlik hərbi bazasını bağlaya bilər. Türkiyə prezidentinin mətbuat katibi İbrahim Kalın sözlərinə görə, rəsmi Ankara dəfələrlə Vaşinqtonu xəbərdar edib ki, Suriyadakı YPG silahlılarına hərbi yardım göstərməsin.

Artıq okeanın o tayından da Ankaranın bu bəyanatına reaksiya verilib. "ABŞ-ın başçılıq etdiyi İŞİD-ə qarşı koalisiya qüvvələri İncirlik aviabazasının dəyərini anlayır". Bunu Pentaqon sözçüsü Peter Kuk deyib. Paralel olaraq belə müzakirələr gedir ki, Türkiyə ordusundakı quldur dəstəsi ilə qanlı çevriliş cəhdi hazırlayan Gülən şəbəkəsi NATO-da da təşkilatlanmağa müvəffəq olub. Avropa.info xəbər verir ki, Türkiyə ordusunun, müxtəlif ölkələrdə fəaliyyət göstərən NATO qərargahlarında xidmət yerinə yetirən 462 zabitindən 237-sinin gülənçi olduğu müəyyən edilib. Əldə olunan məlumata görə 237 hərbçinin 200-ündən çoxu Baş Qərargahdan gələn "geri dön" əmrinə itaət etməkdən boyun qaçırıb. 15 iyul çevriliş cəhdindən sonra Ankara Prokurorluğu tərəfindən FETÖ-nün NATO-da fəaliyyət göstərən üzvlərinə qarşı xüsusi istintaq qaldırılıb. Bu məlumatlar Türkiyənin NATO-dan imtina edə biləcəyi ilə bağlı müzakirələrin getdiyi bir vaxtda tirajlanıb.

Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu isə deyib ki, ABŞ Fərat sipəri əməliyyatının keçirilməsində Ankaraya dəstək verməyib. O həmçinin deyib ki, "türk xalqı ABŞ hərbçilərinin İncirlik bazasında davam edən mövcudiyyətinin lüzumluluğunu sual edir". (Azadlıq Radiosu) Bununla belə Çavuşoğlu ABŞ-ın Türkiyənin "mühüm müttəfiqi" olaraq qaldığını deyib.

Ankaranı narahat edən odur ki, onun yaxın müttəfiqi nəinki Suriyadakı İŞİD-çilərlə mübarizədə ona dəstək vermir, üstəlik, burada "kürd dəhlizi"nin yaradılması istiqamətində fəaliyyətini davam etdirir, terrorçu şəbəkələrə dəstək verir. Bu mənada Türkiyənin NATO-dan imtina edə biləcəyi, yaxud İncirlikdəki NATO bazasını bağlaya biləcəyi ciddi müzakirə mövzusudur. Bu arada ABŞ-ın Türkiyəni Alyansdan çıxarılacağı ilə hədələməsi münasibətləri daha da gərginləşdirən faktordur.

**Politoloq Şahin Cəfərli** "Yeni Müsavat"a bildirdi ki, bu mesajlar Tramp administrasiyasına yönəlib: "Nə Türkiyənin, nə də ABŞ-ın digər müttəfiqlərinin və tərəfdaşlarının səlahiyyət müddətinin yekunlaşmasına sayılı günlər qalan Obama hökumətindən bir gözləntisi qaldığına inanmıram. Səslənən bəyanatlar, verilən mesajlar yanvarın 20-də fəaliyyətə başlayacaq yeni administrasiyaya ünvanlanıb. Bu qalan müddət ərzində Obamanın Türkiyəyə Suriya məsələsində dəstək verməsi və ya verməməsi nəyisə dəyişə bilməz. Xatırlatmaq yerinə düşər ki, Türkiyə və ABŞ Suriya macərasına birlikdə başlamışdılar, hətta Barak Obama 2012-ci ildə Rəcəb Tayyib Ərdoğanı güvəndiyi 5 dünya lideri arasında göstərmişdi. Lakin sonradan hər iki tərəfdən qaynaqlanan bir sıra problemlər ucbatından, xüsusən də Obama hökumətinin PYD-PYG qruplaşmasına fəal dəstəyi ilə əlaqədar tərəflər arasında ciddi fikri ayrılıqları yarandı və bu məsələ ümumilikdə iki ölkə münasibətlərinə neqativ təsir göstərdi. Türkiyə tərəfi İncirlik aviabazasını qapada biləcəyini gündəmə gətirməklə ABŞ-la münasibətlərində yaranmış problemlərin ciddiliyini Donald Trampın diqqətinə çatdırmaq niyyəti güdür".

**Ekspert hesab edir ki, ABŞ və NATO-nun Yaxın Şərqdəki əməliyyatları, ümumilikdə bölgədəki maraqları baxımından İncirlik bazasının strateji əhəmiyyəti böyükdür:** "Bu bazanın önəmini xüsusilə Trampın komandasındakı generallar daha yaxşı anlayır. Tramp administrasiyasının Yaxın Şərq siyasətində məhz həmin generallar, əsasən də yeni Pentaqon rəhbəri Ceyms Mattis və prezidentin mili təhlükəsizlik üzrə müşaviri Maykl Flinn söz sahibi olacaqlar. Türkiyə hökuməti bu məsələni aktuallaşdırmaqla həmin generalların, belə demək mümkündürsə, zəif damarını tutmağa çalışır. Böyük ehtimalla mesaj ünvana çatdığı üçün xarici işlər nazir Mövlud Çavuşoğlu İncirlik bazasının bağlanmasından söhbət getmədiyini bəyan edib".

**Ş.Cəfərli bildirdi ki, Ankaranın ABŞ və Avropa Birliyi ilə münasibətlərində yaranmış soyuqluğa baxmayaraq, Türkiyənin NATO-dan çıxmaq kimi radikal bir addıma gedəcəyinə inanmır:** "Baxmayaraq ki, Türkiyədə bu addımın tərəfdarı olanlar var və son vaxtlar onların səsi daha gur çıxmağa başlayıb. Türkiyə siyasi, iqtisadi və hərbi baxımdan Qərb dünyası ilə çox six inteqrasiya ya gedib. Türkiyə Statistika Qurumu TÜİK-in saytına baxmaq kifayətdir ki, ölkənin xarici ticarətində Avropa dövlətləri başda olmaqla, Qərb blokunun ağırlığını görəsən. NATO-ya üzvlüyün və Avropa Birliyinə namizəd ölkə statusunun istər müdafiə sektoru, istərsə də siyasi-iqtisadi sahədə Türkiyəyə gətirdiyi ciddi dividentlər var. Çoxları avrointeqrasiyanın və avropalaşma kursunun cümhuriyyət dövründə başladığını düşünür, amma bu strateji seçim hələ XIX əsrin birinci yarısında Osmanlı sultanı II Mahmudun dövründə edilib. 140 ildir bu kursla hərəkət edən böyük bir gəminin yönünü 180 dərəcə əks istiqamətə yönəltməyə çalışmaq əsl zəlzələ effekti verər, bu, Türkiyəyə lazım deyil". Politoloqun sözlərinə görə, Qərbdən bütün incikliyinə rəğmən, Türkiyə hökuməti də bunu başa düşür: "Rəsmi Ankara Şanxay Əməkdaşlıq Təşkilatına üzvlük, İncirlik bazasının bağlanması tipli məsələləri aktuallaşdırmaqla, sadəcə olaraq, öz tərəfdaşlarına xəbərdarlıq edir, onlara "sizə möhtac deyilik, maraqlarımızı diqqətə almasanız, alternativ axtarmaq zoruna qala bilərik" mesajını göndərir. Lakin mən hesab edirəm ki, seçilən metod doğru deyil. Xarici siyasət məsələlərinin muxtarlar toplantısında və ölkə daxilində



keçirilən digər kütləvi tədbirlərdə müzakirəyə çıxarılması, bu mövzularda açıq bəyanatların səsləndirilməsini yanlış sayıram. Diplomatiya çox həssas sahədir və gizliliyi sevir. Bu məsələlər gizli təmaslarda danışıqlarda gündəmə gətirilməlidir. Məsələn, Türkiyə İncirlik kartını və digər təsir "rıçaq"larını ortaya qoyaraq, əvəzində ABŞ-dan istədiklərini əldə etməlidir. Bu metodla Türkiyə daha çox şey qazana bilər, təəssüf ki, Türkiyə rəhbərliyinin emosionallığı və problemlərin çözümünü avtoritar idarəçiliyi təmin etməkdə görməsi buna mane olur. Bu gün Türkiyə soyuqqanlı siyasətə ən çox ehtiyac duyduğu dönəmdən keçir. Emosional qərarlar çox böyük təlatümlərə səbəb ola bilər".

İstanbuldakı gecə klubuna edilən hücum səbəbilə NATO-nun Baş Qərargahındakı bayraqların yarıya qədər endirilməsi jesti də Ankaranın əsəblərini soyutmağa hesablanmışdı. Lakin görünən budur ki, gərginlik tezliklə səngiməyəcək.

Obama administrasiyasının son günlərində Türkiyəni təhdidi də bunu təsdiqləyir. "Türkiyədə çevriliş cəhdindən sonra kütləvi "təmizləmələr" dalğasında demokratiya prinsiplərinə əməl edilməzsə, ölkə NATO-dan çıxarıla bilər". APA-nın "İndependent" qəzetinə istinadən verdiyi xəbərə görə, bu xəbərdarlıqla ABŞ dövlət katibi Con Kerri çıxış edib. C. Kerri Brüsseldə bildirib ki, ABŞ və Avropa İttifaqı Türkiyəyə çevriliş cəhdinə verilən cavablarda demokratiya qaydalarına əməl olunmasını təkidlə tövsiyə edir: "ABŞ Türkiyəni mili demokratik institutların və qanunun aliliyinin yüksək standartlarına hörmət göstərməyə çağırır".

**Trampın isə Obamanın ənənəvi Türkiyə siyasətindən imtina edib-etməyəcəyi hələ ki, bəlli deyil.**

❑ E.PAŞASOY



Mübariz Əhmədoğlu

# Qarabağ məsələsində yanımızda olan müsəlman ölkələri

## Politoloq: "Dağlıq Qarabağ konsepsiyasında müsəlman dövlətləri ilə münasibətlər həlledici deyil"

**Dağlıq Qarabağla bağlı müsəlman ölkələrindən Türkiyə və Pakistan hər zaman Azərbaycanın haqlı mövqeyinə açıq dəstək verib və verir. Ancaq biz, bu dəstəyi digər müsəlman və ərəb ölkələrinin bir çoxundan görmürük. Ekspertlər bildirirlər ki, 1990-cı illərin əvvəllərində xalqımıza qarşı yaşadılan ağır faciələr zamanı belə, ərəb ölkələrinin əksəriyyəti baş verənlərə susqun mövqe bildirdilər.**

Mövzu ilə bağlı "Yeni Müsavat"a danışan **politoloq Mübariz Əhmədoğlu**nun sözlərinə görə, hazırda vəziyyət bir qədər fərqlidir: "Azərbaycan müstəqillik qazandıqdan dərhal sonra Səudiyyə Ərəbistanı, Pakistan və Türkiyə Ermənistanla diplomatik münasibətlər qurmadı. Türkiyə sonradan Ermənistanla münasibət qursa da qısa müddət sonra, bunu aradan qaldırdı. Əslində İslam Əməkdaşlıq Təşkilatı (İƏT) və digər bu kimi qurumlar Azərbaycana olduqca güclü dəstək verib. Bu ayrı məsələdir ki, verilən bəyanatlar ritorikadan o tərəfə keçmir. Ərəb dövlətlərinin əksəriyyətində güclü erməni lobbiləri, təşkilatları var. Onlar da qazandıqları pulun bir hissəsini Ermənistana göndərirlər. Hətta hazırda Ermənistanın özündə humanitar, yaxud da iqtisadi layihələr reallaşdıran ərəb dövlətləri var. Küveyt orada dəyəri milyonlarla ölçülən layihələr reallaşdırıb. Yəni, bu cür məsələlər də yox deyil. Lakin elə müsəlman dövlətləri var ki, onlar Azərbaycana orta standart xətdən xeyli yaxındır. Buna misal olaraq Pakistanı göstərə bilərik. Azərbaycan Dağlıq Qarabağ münaqişəsini hərbi yolla həll etməyə başlayarsa, Pakistan dərhal Azərbaycanın yanında olar. Pakistanın Dağlıq Qarabağ münaqişəsinin hərbi həllinə münasibəti, hətta Türkiyənin analoji münasibətindən daha yüksəkdir".

**Politoloq bildirib ki, Ermənistanla ümumi əməkdaşlıq edən, yardımlar göstərən müsəlman ölkələri bir yana, elə müsəlman dövlətləri var ki, onlar konkret olaraq Dağlıq Qarabağ məsələsində də Ermənistanla yaxınlıq edirlər:** "Misal üçün, elə bizim qonşumuz İranı göstərə bilərik. Artıq ermənilər də anlayırlar ki, Ermənistan İrana ona görə lazımdır ki, Dağlıq Qarabağ məsələsi həll olunmasın, status-kvo qorunub saxlanılsın. Çünki Dağlıq Qarabağ probleminin həlli İrana sərf etmir. Erməni Apostol kilsəsinin Tehran yeparxiyasının başçısı Sepux Sərkisyan 4 günlük aprel savaşı zamanı Dağlıq Qarabağa gəldi, pul yardımı da etdi. Sepux Sərkisyanın özü də İran vətəndaşıdır. Oradakı kilsədən yığılan pul da elə İran vətəndaşı olan ermənilərdən yığılan puldur. İran bunu görmür? İran Azərbaycanın xeyrinə bəzi müqavilələr də imzalayır, ancaq görürük ki, bunlar kağız üzərində qalır. Məsələn, "Xudafərin" hidroqovşağı haqqında müqavilə ratifikasiya üçün hələ də İran parlamentinə təqdim olunmayıb. Ancaq Azərbaycan parlamenti bunu çoxdan ratifikasiya edib. Müqavilə qüvvəyə minərsə, İranın borcudur ki, azərbaycanlı mütəxəssisləri işğal olunmuş ərazilərimizə aparsınlar və onlar orada işləsinlər. Bu isə Ermənistanın marağına uyğun deyil. Bu xüsusda, "Araz" azad iqtisadi zonasını da qeyd edə bilərik. İran əvvəl çox çalışdı ki, bununla bağlı müqavilə imzalansın. Lakin Ruhaninin Ermənistana son səfəri zamanı razılaşdılar ki, Mehridə iki dövlət özü, ayrıca iqtisadi zona yaratsın. Ancaq İran əvvəl deyirdi ki, Ermənistan da "Araz" azad iqtisadi zonaya qoşulsun. Ermənistanın bu iqtisadi zonaya qoşulması o demək idi ki, Dağlıq Qarabağ məsələsinin həllinə razılıq verməlidir. Hətta deyim ki, İran uzun zamandır Naxçıvan-Məşəd qatarının açılmasını da yubadırdı. Çünki Naxçıvandan qatarın İrana doğru hərəkəti İran-Ermənistan dəmiryolunun çəkilməsi layihəsini şübhə altına alırdı".

**Ekspertə görə, Azərbaycanın Dağlıq Qarabağ siyasətində müsəlman dövlətlərinin rolu müsbətdir:** "Azərbaycan onlardan ümid gözləsə də Qarabağ konsepsiyasında müsəlman dövlətləri ilə münasibətlər həlledici deyil. Həlledici kateqoriya Azərbaycanın özünün gücü və siyasəti, eyni zamanda region ölkələri ilə aparılan işlərdir. Bunun da nəticəsini biz aprel hadisələri zamanı gördük".

❑ Əli RAİS

YENİ MÜSAVAT
N 2 (6616) 7 yanvar 2017



# Kardaşyan Sərkisyanı xilas edəcəkmi?

Elşad PAŞASOY
epashasoy@yahoo.com

**Serj Sərkisyanın indiki ərəfədə məzuniyyətə getməsi həm də o deməkdir ki, 29 dekabrda oğurlanan əsgərimiz Çingiz Qurbanov nəşi daha bir müddət düşmənin əlində qalacaq. Erməni hakimiyyəti ən azı prezident qayıdana kimi hərbçimizin meyitinin qaytarılmasından təşəbbüslərə şərəfsizcəsinə imtina edəcək.**

Prezidentlik kürsüsünə gedən yolu Qarabağdakı qətliamlardan keçən Sərkisyan üçün meyit alveri çox normal haldır. O, nə insanlıq qanır, nə beynəlxalq konvensiyalar tanıyır. Əslində aprel döyüşlərindən sonra Sərkisyana Azərbaycan üzərində kiçicik də olsa, qələbə lazım idi, ciddi itkilərə görə reytinqini qaldırmaq üçün. Erməni xalqı qarşısında elə rəzil günə qalıb ki, indi o, 21 yaşlı gəncimizin cansız bədənini geri verməməklə özünü "qalib" göstərməyə çalışır. Lakin bu oyunlar erməni toplumunu da boğaza yığıb.

Görün nə vəziyyətdir ki, Ermənistan vətəndaşları prezidentin yeni il təbrikinə "Sərkisyan üçün orta barmaq" eventi ilə cavab verirlər. Özü də təkcə onun yox, katolikos İkinci Qareginin təbrik nitqinə də reaksiya belə olub. Ermənilər artıq bezib, həm hakimiyyətin, həm katolikosun yalanlarından...

Ötən il ciddi itkilərdən sonra Sərkisyan Azərbaycana sentyabradək itirilmiş əraziləri geri qaytarmaqla bağlı axmaqcasına ultimatum verdi. Ancaq erməni prezident yalnız Rusiyanın qucağına bir az da sığınmaqdan, düyməsi Kremlin barmağı altında olan "İsgəndər" raketləri ilə başını aldatmaqdan o yana gedə bilmədi. Hətta Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına (KTMT) rotasiya qaydasında baş katibliyi ələ almaq imkanından da məhrum edilib Sərkisyanın ölkəsi. Bu, nonsesdir, Serjiki ciddi adam saymırlar, dolayırlar. Azərbaycan BMT Təhlükəsizlik Şurasına sədrlik edəcək qədər irəli gedə bildiyi halda, müttəfiqləri İrəvana KTMT kimi oyuncaq qurumun rəhbərliyini belə həvalə etmirlər.

Ermənistanda proseslər barədə düzgün mühakimə yürütmək qabiliyyəti olanlar da durumun fərqindədirlər. Son vaxtlar onlar davamlı şəkildə hakimiyyətə çağırışlar edir. "Biz millət olaraq dərin quyunun içindəyik". Bunu "Erməni intibahı" Partiyasının liderlərindən biri Eqina Bişariyan deyib. Bu mövqedə olan  təkcə odurmu? Keçmiş prezident Levon Ter-Petrosyan Sərkisyanı xəbərdar edib ki, bir az da geciksə, sülhə getməsə, həm Ermənistan, həm də Qarabağ ermənilərı üçün daha da pis olacaq.

Hətta büdcə kəsirini 180 milyon dollarlıq kreditlə bağlayan Ermənistan bu gedişlə Qarabağı işğalda saxlaya bilməyəcək. Vaxtaşırı erməni qızlarının fotosessiyalarını yaymaqla da müharibə bölgəsinə turst cəlb etmək də mümkün deyil.

Azərbaycan ərazilərindəki erməni əsgərlər daha özgə torpaqlarında ölmək istəmir. Ölkədən qaçhaqaçdır, hətta orduya qadınları  çağırırlar.

Görün Ermənistanda durum nə qədər ağırdır ki, Tamella Arzumanyan İrəvandan Bakıya, Turan agentliyinə zəng edərək ailəvi Azəbaycana köçmək üçün yardımçı olmağı xahiş edir. Ermənilər görür ki, Bakıda yaşamaq da mümkündür, işləmək də.

Çıxılmazda olan erməni təbliğatı isə ölkənin ağır durumunda elə bu yaxınlarda döyüşlərin getdiyi Tavuş vilayətini "Ermənistanın İsveçrəsi" adlandıracaq qədər absurdlara gedir. Yaxud Fransadan gəlmiş turistin dilindən "dünyanın ən sabit ölkəsi Ermənistandır" fikrini tirajlayır. Futbolçu Henrix Mxitaryanın qələbəsindən nə qədər yazmaq olar? Bu ölkənin ikinci bir uğuru yoxdur axı.

Sərkisyan anlayır ki, bu il onunçün çox çətin olacaq. Həm də parlament seçkisidir, rəqibləri Ermənistanı "Qarabağ klanı"ndan xilas etməyə çalışacaq. O prezidentliyini 2018-ci ilədək  davam etdirmək, sonra da hansısa oyun qurub başqa postu ələ keçirmək istəyir. Elə çətinə düşüb ki, builki parlament seçkilərini 2 aprelə təyin edib, diqqət seçkiyə yönəlsin, aprel məğlubiyyəti unudulsun deyə...

**Artıq erməni diasporu da Sərkisyan hakimiyyətindən üz çevirib. Bu qaniçən və korrupsioner hakimiyyətə nə qədər pullar ayırmaq olar? Erməni iqtidari deyəsən, təkcə  porno ulduz Kim Kardaşyanın mərhəmətinə ümid bəsləyir. Ermənistan prezidenti 2015-ci ildəki 100 illik şou hazırlanarkən qondarma "erməni soyqırımı"nın tanıdılması üçün Kardaşyandan kömək istəməmişdimi? Elə bunun ardınca populyarlığına görə Sərkisyanı dəfələrlə qabaqlayan porno ulduz çırmanıb İrəvana yollanmışdı. Aprel döyüşlərindən sonra da o, fərari ermənilərə görə Ermənistan üçün "dua" etmişdi. Amma çətin ki, bundan sonra Kardaşyan batmaqda və ölkəni batırmaqda olan Sərkisyanın səsinə səs versin...**

# "Ərdoğan getsə, Türkiyədə terror dayanar" iddiasına sərt etiraz

## Tanınmış politoloq belə iddiaları absurd adlandırdı: "Hədəfdə Türkiyədir..."



**Türkiyə hökumətinin bütün cəhdlərinə, hüquq-mühafizə orqanlarının gecə-gündüz əməliyyatlar keçirmələrinə baxmayaraq qardaş ölkədə terror aktlarının ardı-arası kəsilmir. Artıq hər həftə qanlı terror aktları həyata keçirilir.**

Əvvəllər xain hücumlar əsasən hərbçilərə, polisə qarşı olurdusa, indi sadə insanlar da terrorçuların hədəfindədir. Bir tərəfdən PKK, bir tərəfdən İŞİD və onları dəstəkləyən gizli güclər, dövlətlər Türkiyəni, əsasən də İstanbulu qan gölünə çevirmək planlarını açıq şəkildə ortaya qoyublar. Belə bir durumda bəzi siyasətçilərin, politoloqların "Rəcəb Tayyib Ərdoğan hakimiyyətdən getsə Türkiyədə terror dayanar, Türkiyə düzələr" kimi iddialar irəli sürürlər. Bu iddiaların müəllifləri hesab edir ki, terrorçuların arxasında dayanan dövlətlər, güclər prezident Ərdoğanı hakimiyyətdən uzaqlaşdıra bilmədiklərindən Türkiyəni terrorla sarsıtmaq, bu yolla xalqda Ərdoğana qarşı narazılıq yaratmaqla istəklərinə nail olmaq istəyirlər.

Bu qənaətə gələn siyasətçilər və politoloqlar fikirlərini əsaslandırmaq üçün 2016-cı ilin əvvəllərində Türkiyədə ard-arda terror aktları həyata keçirən PKK və ona bağlı terrorçu qrupların bu qanlı teraktları prezident Rəcəb Tayyib Ərdoğanın siyasətinə etiraz olaraq həyata keçirdikləri barədə yaydıqları bəyanatı xatırladırlar.

*Bu iddialar doğrudurmu? Türkiyədəki terror aktları Ərdoğana görədirmi? Ərdoğan iqtidarda olmasa, terrorçular cinayətlərini dayandıracaqlarmı və Türkiyədə vəziyyət düzələcəkmi?*

**Politoloq Qabil Hüseynli** bildirdi ki, terror aktlarının guya Ərdoğana, onun iqtidarına qarşı olduğu barədə iddialar əsassız, tənqidə dözümsüz, məntiqi əsası olmayan iddiadır: "Terror aktlarının Türkiyə dövlətinə və xalqına qarşı olduğu bəllidir. Hədəfdə Türkiyə dövlətidir. Hər kəsə aydındır ki, terror aktları Türkiyə dövlətini sarsıtmaq üçündür. Ola bilsin ki, indiki Türkiyə iqtidarı müəyyən məsələlərlə bağlı addımlarda səhvə yol verib və verir. Amma şübhəsiz ki, bu gün Türkiyədə indiki iqtidar yox, koalisiyon hökumət olsaydı belə, Türkiyəyə qarşı qurulan bu sui-qəsdlərin, təzyiqlərin qarşısını zərrə qədər də ala bilməzdi. İndiki iqtidar, xüsusilə də prezident Ərdoğan çox ciddi şəkildə mübarizə aparmaq qabiliyyətinə, imkanlarına malikdir. Ölkə əhalisini lazımi ovqatda saxlamağı da bacarır. Bütün bölücü, separatçı, terrorçu qurumlara qarşı ordunun da vasitəsilə mübarizə aparır. Terror aktlarının Ərdoğanın siyasətinə etiraz olaraq həyata keçirildiyi barədə iddialar Türkiyə xalqını iqtidara qarşı qaldırmaq, ölkənin daxilində əlavə siyasi gərginliklər, hakimiyyətsizlik yaratmaq məqsədi güdür. Qəsdən vətəndaşlarda rəy yaratmaq istəyirlər ki, ölkənin terrorla üz-üzə qalması Ərdoğan iqtidarına görədir. Bu rəyi yaradıb xalqı iqtidara qarşı qaldırmaq istəyirlər.

Mən zaman-zaman Ərdoğan iqtidarını tənqid etmişəm, onun bəzi sahələrdə yol verdiyi qüsurları qeyd etmişəm. Amma indiki ekstremal vəziyyətdə Ərdoğan iqtidarı kifayət qədər cəsarətli görünür, səfərbər olunub və qətiyyətli iradə ortaya qoyub".

**Politoloq dedi ki, Ərdoğan hakimiyyətdən gedərsə, terror aktları nəinki dayanmaz, hətta Türkiyənin bölünməsi təhlükəsi yaranar:** "İndiki məqamda bu iqtidar gedərsə, terrorçular daha da geniş əl-qol açar, Türkiyə çox təhlükəli xaosa sürüklənər. Hətta qardaş ölkə parçalanmaq təhlükəsi qarşısında qala bilər. Heç kim elə zənn etməsin ki, bu gün Ərdoğan iqtidarı getsə, Türkiyədə terror aktları dayanacaq, Türkiyəyə qarşı hücumlar sona çatacaq. Əksinə, daha dəhşətli hadisələr bundan sonra başlaya bilər".

❑ Etibar SEYİDAĞA

# Artur Rəsi-Zadənin Netanyahudan fərqi - toxunulmazlıq hüququ var

## Hüquqşünas: "Baş nazir cinayət başında yaxalanmaqdan başqa..."

**İsrail polisi korrupsiya işi üzrə ikinci dəfə baş nazir Binyamin Netanyahunu dindirib. APA-nın "Röyters"ə istinadən verdiyi xəbərə görə, dindirilmə baş nazirin iqamətgahında aparılıb və beş saat davam edib. Baş nazir həmçinin digər iş üzrə də ifadə verib. Xatırladaq ki, Netanyahu bundan əvvəl yanvarın 2-də polisə ilk ifadəsini verib. Dindirilmədən sonra Netanyahu onun barəsində səslənən korrupsiya ittihamları təsdiqini tapmayıb. Netanyahu və onun ailə üzvləri sahibkarlardan yüz minlərlə şekel dəyərində hədiyyələr almaqda ittiham olunurlar.**


Binyamin Netanyahu


Artur Rasizadə

Son bir həftədə İsrailin baş nazirinin ikinci dəfə sorğu-suala çəkilməsi dünya və Azərbaycan gündəminin də əsas mövzularından biri olub. Bu, İsrailin baş nazirinin timsalında ilk belə hadisə deyil. İndiyə qədər Avropanın qabaqcıl ölkələri rəhbərlərinin korrupsiya əməllərinə görə dəfələrlə dindirildiklərinin şahidi olmuşuq. Bu sıraya Böyük Britaniyanın baş nazirləri Devid Kemeron və Toni Bleri, İtaliyanın baş naziri Silvio Berluskoni və digərlərini daxil etmək olar.

Netanyahunun iki dəfə dindirilməsi Azərbaycanda bir sıra məsələləri gündəmə gətirib. İlk növbədə, gözlər ölkə qanunvericiliyinə dikilib. Konstitusiyada baş nazirin qanunları pozarsa, korrupsiya hallarına yol verərsə, aidiyyəii orqanlar tərəfindən sorğu-sual edilib-edilməməsi müəmmaları yaranıb. Çoxları baş prokurorun təqdimatından sonra prezidentin tapşırığı əsasında aidiyyəti qurumun belə bir addım ata biləcəyini vurğulayır. Bəziləri bu amili demokratiya, bəziləri də həmin ölkələrin qanunvericiliyinin diktatorluğu kimi qələmə verir.

**Hüquqşünas Müzəffər Baxış** Azərbaycanın baş nazirinin toxunulmazlıq hüququnun olduğunu söylədi: "Konstitusiyanın 123-cü maddəsində baş nazirin toxunulmazlıq hüququnun olduğu qeyd olunur. Səlahiyyəti müddətində onun şəxsiyyəti toxunulmazıdır. Baş nazir cinayət başında yaxalanmaqdan başqa heç bir halda tutula, cinayət məsuliyyətinə cəlb oluna bilməz. Onun barəsində məhkəmə qərarı ilə inzibati cəza da verilə bilməz. Eyni zamanda, axtarışa da məruz qala bilməz. Yalnız Azərbaycanın baş naziri cinayət başında yaxalanarsa tutula bilər. Belə olan halda onu həbs edən orqan dərhal Azərbaycan baş prokuroruna xəbər verməlidir. Baş nazirin toxunulmazlıq hüququna yalnız baş prokurorun təqdimatından sonra prezidentin qərarı ilə xitam verilə bilər. Prezident səlahiyyətinə xitam verdikdən sonra baş naziri həbs etmək və digər tədbirlər həyata keçirmək olar. Amma baş nazirin fəaliyyətində hər hansı bir şübhələr varsa, belə olduğu halda istintaqı aparmaq prokurorluq orqanlarına aiddir. Belə vəziyyətdə bu orqanlar baş naziri dindirə bilərlər. Konstitusiyanın 215.3.2-ci maddəsi ilə prezident, deputatlar, baş nazir və ombudsmanla bağlı cinayət prokurorluq orqanları tərəfindən aparılır. Amma inanmıram ki, baş prokuror və prokurorluğun istənilən əməkdaşı bu və ya digər cinayətlə bağlı baş naziri dindirsin. Baş nazirin toxunulmazlıq hüququnun olması konstitusiyanın 25-ci maddəsi ilə ziddiyyət təşkil edir. Kimlər üçünsə üstün hüquq müəyyən edilə bilməz. 25-ci maddənin birinci bəndi ilə hamının məhkəmə qarşısında bərabər olduğu qeyd olunur. Bunların hamısı qanunların beynəlxalq standartlara uyğun olmaması ilə əlaqədardır. Baş nazir barəsində bu hüququn tətbiq edilməsi onun hüququnun hamıdan  üstün olduğunu göstərir. Məsələn, o, cinayət törədir, onu məsuliyyətə cəlb etmək üçün hökmən prezidentdən icazə almalıdırlar. Amma mən cinayət törədəndə heç kimdən icazə almağa gərək olmur, dərhal həbs olunuram. Bunların hamısı hüququn prinsiplərinə uyğun deyil".

**"Turan" agentliyinin rəhbəri Mehman Əliyev** xarici ölkələrdə baş nazirlərin dindirilməsinin demokratiya nümunəsi olduğunu düşünür: "Bunların qanunun aliliyindən irəli gəlir. Belə sorğu-suallar medianın əsas diqqət mərkəzində olur. Adətən bu tipli sorğular jurnalistlərin apardıqları tədqiqatlarla meydana çıxır. Bunlar qanunun aliliyi və demokratiyanın olmasını göstərir. Bu iki amildən birinin olmadığı yerdə digəri də olmur. Bunlar bir-birinə bağlı məsələlərdir".

❑ Cavanşir ABBASLI

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



# Yaxın 3 ayda Qarabağda sülhü mümkünsüz edən 3 səbəb

## Nizamlama prosesini irəli aparmaq zərurəti indi heç vaxt olmadığı qədər prioritetə çevrilib; Azərbaycan müdafiə və hücum silahlarını bu il daha da təkmilləşdirəcək, öz hava məkanının təhlükəsizliyini gücləndirəcək...

**2017-ci ilə adlayan Dağlıq Qarabağ "yükü" belə görünür, hələ bir neçə ay da öz yerində qalmalı olacaq. Bunun bir səbəbi kimi ATƏT-in Minsk Qrupunun ABŞ və Fransadan olan həmsədrlərinin təzələnməsini göstərmək lazım gəlir. Çünki yeni diplomatların "işin içinə girməsi" üçün müəyyən vaxta ehtiyac olacaq.**





İkincisi, ABŞ-ın yeni prezidenti Donald Tpampın administrasiyasının fəaliyyətə başlaması və qlobal və yeni hökumətin regional gündəmə girməsi üçün də müvafiq zaman kəsiyi lazımdır. Minsk Qrupunun iki ən mühüm həmsədr dövləti kimi ABŞ və Rusiyanın bundan sonrakı münasibətləri isə Qarabağ məsələsinə də öz ciddi təsirini saxlayacaq.

Nəhayət, üçüncü faktor qismində işğalçı Ermənistanda aprelin 2-ə təyin olunmuş parlament seçkilərini qeyd eləmək lazım gəlir. Aydındır ki, səsvermə gününədək bu ölkədəki siyasi qüvvələr Qarabağ mövzusunda populist vədlər verəcək. Seçki kampaniyası müddətində hakim Sərkisyan rejiminin Qarabağ məsələsində konstruktiv yanaşma gözləməyə, ümumiyyətlə, dəymir - zatən, bu, ona həm də danışıqlar prosesini pozmaq, vaxtı yetişmiş kompromislərdən qaçmaq üçün bəhanə qismində gərəkdir.

***

Azərbaycan söz yox ki, Ermənistan rəhbərliyinin ən azı, önümüzdəki üç ayda Qarabağla bağlı radikal mövqe sərgiləyəcəyini, hətta cəbhə xəttində yeni təxribatlar törədə biləciyinin fərqindədir. Odur ki, özünün Silahlı Qüvvələrinin döyüş hazırlığı və müdafiə qabiliyyətini artırmaq üçün heç şübhəsiz ki, gərəkən bütün addımları atmaqda davam edəcək. Diqqətçəkicidir ki, il başlar-başlamaz bu yöndə çox xoş, düşmənin isə yuxusunu qaçıracaq bir xəbər gəlib. Belə ki, Bakının İsraildən "Dəmir Günbəz" raketdən müdafiə sisteminin ən yeni versiyasını almağa hazırlaşdığı dəqiqləşib.

Xəbərə görə, bir neçə illik cəhdlərdən sonra nəhayət, İsrail özünün "Dəmir Günbəz" ("İron Dome") raketdən müdafiə sisteminin ixracı ilə bağlı ilk sifarişi alıb. Bu, müsəlman ölkəsi Azərbaycandır. ABŞ-ın "Strategy Page" saytında belə deyilir (Virtualorg.az). Sayt yazıb ki, sistemi ixrac etmək üçün müştərilər tapmaq çətin olub. Çünki az ölkə var ki, kütləvi şəkildə minomyot və raket atəşinə məruz qalsın.

**"Daha doğrusu, belə ölkələr çoxdur, ancaq onların əksəriyyəti müsəlman ölkəsidir və İsraillə problemləri var. Əksər müsəlman ölkələri İsraillə ticarəti boykot edir. Lakin Azərbaycan neft sərvətlərinə malik çox az müsəlman ölkələrindən biridir ki, İsraillə sıx ticarət tərəfdaşlığına malikdir. Bundan əlavə, Azərbaycanın əhalisi əsasən türklərdən ibarətdir və ölkənin İranla münasibətləri çoxdandır ki, yaxşı deyil. Ancaq Azərbaycan üçün əsas hərbi təhdid xristian Ermənistandır. Rusiyanın vasitəçiliyi ilə aparılan danışıqlara baxmayaraq onların arasındakı münaqişə qalmaqdadır. Təmas xətti boyu toqquşmalar davam edir. "Dəmir Günbəz" sistemi də məhz buna görə lazımdır"** - sayt qeyd edib.

"Strategy Page" daha sonra yazıb ki, Azərbaycanın İsraildən "Dəmir Günbəz" alacağı təsdiqlənib, lakin satışa dair detallar - neçə batareya alınacağı, çatdırılma qrafiki və s. məlum deyil. Nəşrin bildirdiyinə görə, 2016-cı ildə "Dəmir Günbəz" uğurla yenilənib və sınaqdan çıxarılıb. Nəticədə bu sistem ən müxtəlif tip pilotsuz uçan aparatları da vura bilir. Sistemi istehsal edən "Rafael Advanced Systems" şirkəti onun proqram təminatını dəyişdirib və bunu Pentaqonun sifarişi ilə edib. O vaxta qədər "Dəmir Günbəz" vertolyotlardan tutmuş təyyarələrə, minomyot mərmilərindən tutmuş, müxtəlif tip raketlərə qədər hədəfləri vura bilirmiş. Birləşmiş Ştatlar "Dəmir Günbəz" sisteminin modernləşdirilməsi və satın alınması üçün İsrail şirkətinə 1 milyard dollar ayırıb. Sistemə yeni funksiyalar əlavə olunub və gözlənilir ki, bu, Azərbaycana satılacaq ixrac versiyasının istehsalına kömək edəcək. Çünki sistemin məhz bu yeni funksiyaları Azərbaycanın marağını cəlb edir.

"Strategy Page" qeyd edib ki, "Dəmir Günbəz" 2009-cu ildən istismardadır və özünü döyüşdə göstərə bilib. Sistem raketlərin trayektoriyasını tez müəyyən etmək üçün iki radardan istifadə edir, əgər raketin yaşayış olmayan əraziyə düşəcəyi məlum olursa onu vurmur. Lakin əgər kompüterlər göstərsə ki, raket yaşayış məntəqəsinə və digər vacib obyektə düşəcək, o zaman qiyməti 50 min dollar olan, idarəedilən "Tamir" raketi sistemdən strat götürür və hədəfi məhv edir. "Dəmir Günbəz" eyni vaxtda bir neçə yüz hədəfi izləyə bilir və bu da sistemi iqtisadi baxımdan effektli edir. Belə ki, "Hizbullah"la müharibədə "Dəmir Günbəz" yaşayış məntəqələrinə istiqamətlənən raketlərin 85 faizini tutmuşdu.

Sistem habelə 3 min metrdən 10 min metrə qədər yüksəklikdə uçan təyyarələri, vertolyotları da vura bilir. Raketlərinin diapazonu 70 kilometrdir. Lakin bu məsafənin 200 kilometrə qədər artırılması üzərində iş gedir. Bir batareya "Dəmir Günbəz" atəşin idarə edilməsi qurğusu, RLS və 3-4 buraxılış qurğusuna malikdir. Hər qurğuda 20 raket var. Bir batareyanın qiyməti raketlərin sayından asılı olaraq 37-50 milyon dollar arasındadır.

***

**Azərbaycan öz hava məkanını təkcə İsraildən alınan sistemlər hesabına gücləndirməyi planlaşdırmır. Rəsmi Bakı dost-müttəfiq Pakistan və Türkiyə ilə, habelə Belarusla hərbi-texniki əməkdaşlığı dərinləşdirmək kursu götürüb. Yəqin ki, 2017-ci il ərzində biz bu əməkdaşlığın yeni və parlaq təzahürlərini görəcəyik. Söhbət həm də modern silah və sistemlərin ortaq istehsalından, yaxud Azərbaycanda istehsalının təşkilindən gedir. Öz hərbi sənayesini uğurlu inkişaf etdirən Azərbaycan artıq daha modern döyüş və müdafiə qurğularının istehsalı üçün kifayət qədər ciddi göstəricilərə malikdir.**




# Silahlı Qüvvələrə Yardım Fonduna daxil olan vəsaitin məbləği açıqlandı

**Yanvarın 1-dək Silahlı Qüvvələrə Yardım Fonduna daxil olan vəsaitin məbləği açıqlanıb. Müdafiə Nazirliyindən verilən məlumata görə, yanvarın 1-dək Fonda 79.212.496,09 AZN, 212.373,88 ABŞ dolları, 5935,69 avro və 5000,0 rubl vəsait daxil olub.**

Qeyd edək ki, Silahlı Qüvvələrə Yardım Fondu Azərbaycan Prezidentinin 2002-ci il 17 avqust tarixli 755 saylı fərmanı ilə yaradılıb. Fond Azərbaycan Silahlı Qüvvələrinin müasir tələblər səviyyəsində inkişafını təmin etmək, onun maddi-texniki bazasını möhkəmləndirmək və zəruri sosial tədbirləri maliyyələşdirmək məqsədilə yaradılıb.

Fondun maliyyə mənbəyi Azərbaycan Silahlı Qüvvələrinin maddi-texniki və sosial bazasının möhkəmləndirilməsinə maliyyə köməyi məqsədilə Azərbaycanın ərazisində fəaliyyət göstərən hüquqi və fiziki şəxslərdən könüllülük əsasında daxil olan maliyyə vəsaiti və qanunvericiliklə qadağan olunmamış digər daxilolmalardır.

Fondun əsas vəzifəsi Azərbaycanın etibarlı müdafiəsi üçün Silahlı Qüvvələrin inkişafını və onun maddi-texniki bazasının möhkəmləndirilməsini, həmçinin hərbi qulluqçuların sosial müdafiəsinin daha da gücləndirilməsini təmin etməkdir.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi

YENİ MÜSAVAT
N 2 (6616) 7 yanvar 2017



# Türkiyənin qurtuluş yolu varmı

## Yaxın Şərqin ən güclü ölkəsini terror və savaş meydanına çevirmək istəyənlər haqda qeydlər

**2016-cı ildə İstanbula gələn xarici turist sayı 25 faiz azalaraq son 16 ildə ən aşağı göstəriciyə malik olub. İstanbul Mədəniyyət və Turizm İdarəsinin məlumatına görə, yalnız ötən ilin dekabr ayı ilə müqayisədə İstanbula gələn ziyarətçilərin sayında 18 faiz azalma qeydə alınıb. Belə ki, 2015-ci ilin dekabrında İstanbulu 821 min turist ziyarət etdiyi halda, 2016-cı ildə bu rəqəm 674 min nəfərə düşüb.**

**Ümumilikdə isə ötən il İstanbul 9 milyon 203 min turist qəbul edib.** Ancaq buna baxmayaraq, İstanbul hələlik dünyada ən çox turist cəlb edən 10 şəhərdən biri olaraq qalır. Lakin son illərdə artan terror olayları, dünyanın ən məşhur turizm şəhərinə ağır zərbə vurur. Qeyd edək ki, İstanbula gələn turistlərin 10.9 faizini almanlar, 7 faizini iranlılar, səudiyyə ərəbləri 5.2 faiz, 4 faiz ingiltərəlilər, 3.9 faizi fransızlar, 3.5 faizini amerikalılar, 3.2 faizini ruslar və sair təşkil edir. Yeri gəlmişkən, İstanbulu ziyarət edənlərin 2 faizini, yəni hardasa 180 min nəfərdən bir qədər çoxunu Azərbaycan vətəndaşları təşkil edir.

Bu sadəcə Türkiyənin bir şəhərinə, özü də turizmin əsas mərkəzlərindən birinə terrorun vurduğu zərərdir. Amma terror yalnız İstanbulu deyil, eləcə də digər şəhərləri, Anadolunun içində, ciddi şəkildə qorunan Ankarada, ölkənin qərbində sakit İzmirdə də olur. Ümumiyyətlə, terror bütövlükdə Türkiyədə turizmə böyük zərbə vurur, Türkiyənin sabit, turistlər üçün cəlbedici olan üstünlüyünü itirir.

**Hələ uzaq 1995-ci ildə Türkiyə siyasi islamçı hərəkatın lideri Nəcməddin Ərbakan deyirdi ki, bir gün Suriya xaosa tutulanda, deməli, sıra Türkiyəyə gəlib.** Təbii ki, nə o zaman, nə də son bir-iki ilə qədər çoxları bu fikrə etimad etmirdi. Suriyada Türkiyə, ərəb ölkələri və Qərb dünyası bir cəbhədə idi. Qarşı tərəfdə isə İran və Rusiya vardı. Ancaq ötən ilin əvvəllərində məlum oldu ki, amerikalılar Suriyada islamçı terrorçularla yanaşı həm də kürd terrorçularını, konkret olaraq YPG-ni dəstəkləyir. Ankara uzun zaman tələb etsə də, Vaşinqton YPG ilə bağlarını nə inkar etmədi, nə də imtina etmədi. O zamanlardan bəlli oldu ki, Ankara artıq Suriyadan özünə qarşı birbaşa təhdid görür. Çünki PYD 3 ənənəvi kürd kantonu və daha bir ərəb kantonunu da ələ keçirərək muxtariyyət elan etdi. Məlum oldu ki, amerikalılar üçün Suriyada əsas qüvvə məhz kürdlər imiş. Hansı ki, həmin PYD Türkiyədəki PKK-nın müttəfiq təşkilatı hesab olunurdu. Yəni artıq Vaşinqtonun dəstəklədiyi PKK təşkilatı Suriyada muxtariyyət əldə etmişdi.

**Məlum oldu ki, əslində üzdə müttəfiq kimi görünsə də, nə Avropa, nə də ABŞ İraq və Suriyada Türkiyə hakimiyyətini dəstəkləmir.** Doğrudur, burda yalnız Türkiyənin Yaxın Şərq siyasəti deyil, eləcə də Türkiyənin özünün Qərblə münasibətlərinin pozulması da rol oynayırdı. Ancaq nəticə etibarı ilə son bir ildə Ankara Qərblə faktiki olaraq "mehriban düşmən" rolunu oynayıblar. Amma Türkiyədə vəziyyət getdikcə daha da gərginləşir.

**Türkiyəni kim qarışdırmaq istəyir?** İraqda və Suriyada bir-biri ilə qanlı düşmən olan, savaşan İŞİD və PKK-nın Türkiyəni hədəfə alması və demək olar ki, hər həftə qanlı terror aktı törətməsi qeydə alınır. Doğrudur, Türkiyə hazırda "Fırat kalkanı" əməliyyat çərçivəsində İŞİD və kürd terroruna qarşı mübarizə aparır, Suriyaya ordu yeridib. Ancaq terrorun Türkiyədə bu qədər genişlənməsi, ölkənin ən böyük şəhərlərini, ən çox qorunan həssas nöqtələrini hədəf alması istər-istəməz ağıllara terrorun arxasında başqa qüvvələrin olması fikrini gətirir. İstanbulda yeni il günü baş verən terrordan dərhal sonra Britaniya mətbuatında bir professorun imzası ilə yazı dərc olundu. İngilis alim Türkiyənin Pakistana çevrilməyə başladığını və qüdrətli Türkiyə liderinin bu prosesin qarşısını ala bilmədiyini yazır. Bu bir professorun analizi olsa da, təxmini olaraq Qərbdən görünən Türkiyə mənzərəsi idi.

**Türkiyə artıq Yaxın Şərqin sabit, inkişaf edən turizm cənnəti deyil, ya da kimlərsə ən azı belə olmasını istəmirlər.** Komplo nəzəriyyələrinə dalıb bu günlərdə geniş yayılmış şəkildə Qərbi ittiham etmək, bu terrorun bir mərkəzdən idarə olunduğunu iddia etmək doğru olmasa da, ortada bir fakt var: Türkiyə küncə sıxılır. Qərblə əlaqələri soyuyur, AB ilə qaçqınlar və viza anlaşması uğursuzluğa düçar olur, Almaniya "erməni soyqırımı"nı tanıyır, ABŞ kürdləri dəstəkləyir. Bu siyahıya lirənin günü gündən dəyərdən düşməsi, investorların ölkədən getməsi, 15 iyul hadisələri və sair şübhəli hadisələri gələndə heç də ürək açmayan mənzərə yaranır.

**Məsələ ondadır ki, Türkiyə "ərəb baharı"nın gedişində Qərblə yollarını ayırdı.** Güclü, iddialı Türkiyənin maraqları Liviyada, Misirdə, Suriyada, İraqda ənənəvi müttəfiqləri olan Qərblə toqquşdu (İran və Rusiya ilə əvvəldən düz deyildi - K.R) və Qərb tədricən Türkiyəni sahədə yalnız qoydu. Böyük siyasi proseslərdə hər zaman Qərblə birgə əməkdaşlıq edən Ankara artıq yalnızdır. Ərəb müttəfiqləri isə Türkiyəyə yalnız maddi dəstək verə bildilər, onsuz da Türkiyə kimi mürəkkəb ölkədə onların daha artığını etmək kimi təcrübəsi yox idi. Əksinə daha əvvəl gedilən yol, Türkiyəyə yerləşmiş çoxlu sayda xarici ölkə kəşfiyyat xidmətlərinin olması, ənənəvi müttəfiqlərin artıq kəşfiyyat dəstəyi vermədiyi, əksinə, bəlkə də Türkiyə əleyhinə fəaliyyət göstərdiyi bir vəziyyətdə meydanda yalnız qalıb. Artıq ənənəvi müttəfiqlər yoxdur, ya Türkiyə yeni bir yol müəyyən edib daxildə və xaricdəki düşmənlərinə qarşı ağır, yorucu mübarizə aparacaq, ya da daxildə siyasi islahatlara gedib, yenidən ənənəvi yerinə qayıdacaq. Hər iki prosesin özü ağrılı keçəcək. Ancaq istənilən halda indiki vəziyyət dövlətin qəti addımlar atmasını tələb edir.

❑ **Kənan RÖVŞƏNOĞLU**

# Ukrayna və Gürcüstanı Avropa üçün vazkeçilməz edən səbəb



## Elxan Şahinoğlu: "Hər iki ölkənin qorunmasına böyük ehtiyac var, ancaq..."

**Son illər ərzində Gürcüstan və Ukrayna Qərb üçün sanki vazkeçilməz ölkələrə çevrilib. Xüsusən də ABŞ əsas güc mərkəzi kimi öz rəqibi Rusiyanı zəiflətmək üçün hər iki ölkənin önəmini yaxşı anlayır və onların güclənməsindən ötrü əlindən gələni edir.**

Son olaraq, ABŞ senatorları Con Makkeyn, Lindsi Qrem və Emi Klobuşarun Gürcüstan və Ukraynaya səfərləri və orada Rusiyaya verilən mesajlar bu dövlətlərin rəsmi Vaşinqton üçün vacibliyini bir daha göstərir. Hətta iş o yerə çatıb ki, Amerika Ukrayna və Gürcüstandan ötrü dünyada iqtisadi böhran belə yaradır, Rusiyanı çökdürmək üçün neftin qiymətini görünməmiş dərəcədə düşməsinə kömək edir. Avropa Parlamenti və Avropa Birliyinin hər iki ölkənin vətəndaşlarının Avropaya vizasız səfərlərinin gerçəkləşməsi üçün tarixi razılığa gəlməsi bu ölkələrin Qərb üçün nə qədər əhəmiyyətli olduğunu bir daha göstərir.

Ekspertlərin Ukrayna və Gürcüstanı Avropa üçün vazkeçilməz edən səbəblərlə bağlı fikirləri müxtəlifdir. Bəziləri Rusiya faktorunu göstərsə də, hər iki ölkənin Qara dənizə açılan dövlətlər olduğunun burada mühüm rol oynadığını düşünənlər də az deyil.

**Politoloq Elxan Şahinoğlu** hesab edir ki, Ukrayna və Gürcüstan Rusiyaya müqavimət göstərdiyinə görə Avropa üçün əhəmiyyətdirlər: "Düşünmürəm ki, Amerika hər iki dövləti Rusiyadan qoruya bildi, indi də bu belədir. Rusiya 2008-ci ildə Abxaziya və Cənubi Osetiyanı ələ keçirdi, hərbi qoşunlarını burada yerləşdirdi. ABŞ buna etiraz etsə də, prosesin qarşısını ala bilmədi. Hətta Rusiya əleyhinə sanksiyalar da elan olunmadı. İndi isə Ukrayna əraziləri işğal olunub. Düzdür, indi Kremlə qarşı sanksiyalar həyata keçirilir. Amma yenə də ABŞ Rusiyaya qarşı ciddi müqavimət təşkil edə bilmədi. Üstəgəl, baxmayaraq ki, Con Makkeyn Ukrayna və Gürcüstana səfər edir, Rusiyaya meydan oxuyur. Amma onun partiyasından prezident seçilən Donald Tramp deyir ki, Putinlə dostlaşacam. Ola bilər ki, ABŞ-ın Kremlə qarşı münasibəti normallaşsın. Doğrudur, Makkeyn və bəzi senatorlar var ki, Putini düşmən sayırlar, Gürcüstan və Ukraynaya dəstək verilməsini vacib sayırlar. Amma Amerika tək Makkeyndən ibarət deyil. Əgər yeni ABŞ Administrasiyası Rusiya ilə birgə beynəlxalq terrorizmə qarşı mübarizə yolunu seçsə, o zaman Ukrayna və Gürcüstan arxa plana keçə bilər. ABŞ çox istəyir ki, Qara dənizdə Rusiyanın hegemonluğuna imkan verməsin. Amma Qara dəniz bölgəsindəki proseslər ABŞ-ın istəklərinin əleyhinə gedir. Öncəliklə Rusiyanın nəzarətindəki Krım şimal qonşumuz üçün vacib liman yarımadasıdır. Üstəgəl, Türkiyə ilə Rusiya yaxından əməkdaşlıq edir. Qardaş ölkə Amerikanın hərbi bazasının Qara dənizdə olmasının qəti əleyhinədir və Rusiya ilə əməkdaşlığa ciddi önəm verir. Bu amillər Amerikanın burada möhkəmlənməsinə imkan vermir".

**Politoloq Gürcüstan və Ukrayna vətəndaşlarının Avropaya səfərləri üçün aradan qaldırılan viza məsələsinə də toxundu:** "Əslində Avropa bunu çoxdan etməli idi. Ukraynada inqilab baş verəndə əsas şüarlardan biri Avropa ilə bütövləşmək idi. Hətta buna görə Ukrayna ərazisinin bir hissəsini də itirdi. Avropa ilə yaxınlaşmanın qarşılığında Krım və Donbası əldən vermək böyük itki idi. Vizanın aradan qaldırılması hələ azdır. İnteqrasiya sürətləndirilməlidir. Əgər viza aradan qaldırılırsa, demək Avropa İttifaqı Gürcüstan və Ukraynanı özünün ciddi strateji tərəfdaşı sayır və istəmir ki, bu ölkələrdə Rusiya hegemonluq etsin. Amma yenə də son sözün sahibi Amerikadır. Çünki Avropa İttifaqında elə ölkələr var ki, Krımın işğalına görə Rusiyaya qarşı tətbiq edilən sanksiyaların aradan qaldırılmasının tərəfdarıdır. Tramp hakimiyyəti Putinlə yaxınlaşsa, o zaman Avropa İttifaqının Rusiyaya qarşı sanksiyaları yumşala bilər. Hazırda dünyanın əsas diqqəti Suriyadadır, terrora qarşı mübarizədədir. Amerikanın yeni prezidenti də əsas diqqəti bu məsələlərin həllinə yönəldəcək. Lakin demək istəmirəm ki, ABŞ Gürcüstan və Ukraynanı Rusiyaya qurban verəcək. Amma hər halda əvvəlki kimi dəstək də olmayacaq. Bu iki ölkə əslində problemlərini özü həll etməlidir. Düzdür, Rusiyanın təzyiqləri güclüdür və hər iki ölkənin qorunmasına böyük ehtiyac var. Beynəlxalq terror çox təhlükəli həddə çatır və Amerikanı da ağuşuna ala bilər. Bu baxımdan Tramp terrorizmə qarşı birgə mübarizə üçün Putinlə yaxınlaşmağa çalışacaq. Bu zaman Kremlin də əsas istəyi o olacaq ki, Rusiyaya yaxın məsələlərə ABŞ qarışmasın. Əgər belə bir sövdələşmə olacaqsa, o zaman Gürcüstan və Ukrayna öz güclərinə arxayın olmalıdırlar".

**E.Şahinoğlu Ukrayna və Gürcüstanın NATO-ya gedən yollarından da söz açdı:** "Bu məsələdə də ikitirəlik var. Əslində çoxdan həll olunmalı məsələdir. Cənubi Osetiya və Abxaziyanın işğalından öncə Gürcüstan NATO-ya üzv olmalı idi. Çünki bu hadisələrdən öncə NATO-nun Buxarest toplantısında ABŞ-ın o zamankı prezidenti Corc Buş buna dəstək verib. Əgər o zaman Ukrayna və Gürcüstan NATO-a üzv olsaydılar, Rusiya onların ərazilərini işğal edə bilməzdi. İndiki durumda bu məsələnin yaxın zamanlarda həll olunacağını düşünmürəm".

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 2 (6616) 7 yanvar 2017

**Məşhur azərbaycanlı reper Anar Nağılbaz işsiz qaldığından hətta satıcı işləməyə hazırdır. Bu barədə reper bir neçə gün öncə sosial şəbəkədə məlumat paylaşıb. Anar Nağılbaz uzun müddət telekanallarda fəaliyyət göstərdiyini, bir çox sahələrdə səriştəsi, illərlə iş təcrübəsi olduğu halda artıq neçə ildir ki, işsiz qaldığını deyib:**



# “O mahnıya görə dedilər ki, xoşunla ərizəni yaz...”

## Anar Nağılbaz: “İstər Elçibəy, istərsə də Heydər Əliyevin vaxtında haqq səsimi ucaltmışam”

“Ölkəmi tərk etmək fikrim yoxdur, ciddi, normal, daimi iş olsa, dostlarıma qoşula bilərəm. İşlədiyim bütün yerlərdə iş yerimin qanun-qaydasına uyğun çalışmışam”. Reperin bu cür müraciəti mətbuatda, sosial şəbəkələrdə xeyli müzakirələrə səbəb olub.

Mövzu ilə əlaqədar Anar Nağılbaz “Yeni Müsavat”a danışıb. Müsahibimiz işsiz qalmasının əsas səbəblərindən, pərəstişkarları üçün qaranlıq qalan bəzi nüanslardan söz açıb:

***- Anar bəy nə baş verir? Bu gün repə, yoxsa Anar Nağılbaza tələbat yoxdur?***

- Mən hər zaman qeyd etmişəm, ümumiyyətlə rep əcnəbi musiqidir, milli deyil. Xaricdə bizim musiqimiz maraqla dinlənildiyi halda, ölkəmizdə əcnəbi musiqinin prototipi çox da qəbul edilmir. Biz az da ondan irəli gəlir ki, biz, başda özüm olmaq şərti ilə repçilərimiz daha çox həqiqəti, xalqın dərdlərini deməyə üstünlük verir, daha çox o yolu tutmuşuq. Bu məsələ biz az da ondan irəli gəlir. Mənim ixtisasım televiziya rejissorudur. Amma heç bir televiziya rəhbəri məni yaxın qoymur. Özləri ilə dəfələrlə görüşüb, müraciətim olsa da, hətta Prezident Administrasiyasına məktub yollasam da hamısına demək olar ki, rədd cavabı gəlib. Ən sonda deyiblər ki, müsabiqə verməlisən. 25 il bu yolda səriştəsi olan, şou-biznesin əsaslarını qoyanlardan biri kimi, iki prezidentin qarşısında çıxış edən, 15 albomun müəllifi, nə bilim, bir çox işlərdə az-çox imzası olan insan kimi nəinki öz ixtisasım, ona yaxın olan bir iş tapa bilmirəm.

***- Sizcə, səbəb nə ola bilər? Bir müddət bundan əvvəl, 2014-cü ildə haqqınızda məlumat yayıldı ki, müxalifətə qoşulmusuz. Məsələ bundan qaynaqlana bilərmi?***

- Bu məsələ 2012-ci ildən başlayıb. Mən onda Qaraçuxur mədəniyyət sarayında direktor müavini vəzifəsində işləyirdim. Və 2013-cü ildə seçkilərlə əlaqədar “Gəl seçkilərə” adlı repimi təqdim etdim. Həmin mahnı əslində nə heç kimin tərifi, nə də tənqidi deyildi. Sadəcə olaraq insanlarımızı fəallığa, azərbaycançılığa, cəmiyyətdə daha fəal olmağa dəvət edən bir mahnı idi. Orada Elşad Xose, Natəvan Həbibi, Zaur Əmiraslanov da ifa edirdi. Mahnının sözləri və musiqisi mənim idi. Sadəcə olaraq o mahnı çıxandan sonra dərhal məni dəvət etdilər ki, öz xoşunla ərizə verib işdən çıx. Yəni seçki ərəfəsində mən öz ərizəmlə razılıq verib işdən çıxdım. Ondan sonra bir çox problemlərlə üzləşdim. İndi də problemlər içindəyəm. Həm işsizlik, ev təminatı, həm də bir çox problem, hamısı göz qabağındadır...

## “Xaricdə yaşayan insanlarımıza “otxod” deyənlərin Allah cəzasını versin”

***- Ötən ilin sentyabr ayında konsert vermişdiz. Tamaşaçıların münasibəti, marağı sizi qane etdimi?***

- Ümumiyyətlə, konsert işinin necə qurulmasından danışım. Dövlət orqanlarının, həmin rayon üzrə cavabdeh insanların, təşkilatçıların köməyi olmasa konsert təşkil etmək qeyri-mümkündür. Əslində konsert avqustun sonlarına təsadüf etməli idi. Sonra sentyabrın sonlarına saldıq. Təşkilati baxımından 50-50-yə də bizə kömək, dəstək göstərən olmadı. Amma halbuki mənim xəbərim var ki, tanınmış insanların anşlaq konsertlərini çox yüksək səviyyədə, yüksək dairələrdə həll edirlər və biletlərini hətta məcburi şəkildə satdırırlar.

***- İndiki repçilərdən kimləri bəyənirsiz?***

- İndi öndə gedən qardaşlar çoxdur, Allah hamısına kömək olsun. Ramin Nabran, Dadodur, yenə də öz sözlərini deyirlər. Elşad Xose 90-cı illərdən bu yana yenə brenddir. Cavanlardan amma daha çox bəyəndiyim Fikrət Gündüzlüdür, yaxşı çıxış edir. Uran heç, o da brenddir, Azərbaycanda dəyərli insandır. Əslində yüzlərlə gənc var, hətta bir şeyi qeyd edim, təxminən 8 il əvvəl 2000 min nəfər Hip-hop mədəniyyətinin üzvlərinin adını yazmışdıq. Araşdırdıq ki, Azərbaycan üzrə rayonlarda belə neçə nəfər repçimiz var, neçə nəfər bu mədəniyyətin üzvü var. Bu mədəniyyətə təkcə rep oxuyanlar daxil deyil. Hip-hop mədəniyyətinin qolları genişdir, onun Graffiti sənəti, Küçə rəqsi (Breakdance) və sairə növləri var. Yəni qolları çoxdur.

***- Belə anladım ki, siyasi mövqeyinizə görə işinizdən olmusuz, hətta televiziyalardan da uzaq düşmüsüz. Bəs toylara dəvətlər alırsızmı? Məlum məsələdir ki, sənətçilərin demək olar ki, böyük əksəriyyətinin qazancı toylardan gəlir.***

- Mən siyasətçi deyiləm. Xalqın içindən olan bir adamam. Ara-sıra istər Elçibəy, istərsə də Heydər Əliyevin vaxtında, istərsə də indiki vaxtda şəxsi problemləri qarışıq olmaq şərti ilə xalqın sadə bir nümayəndəsi kimi haqq səsimi ucaltmışam. Və hesab edirəm ki, cəmiyyətimizdə insanlar belə olmalıdır, çünki informasiya agentlikləri lazımi dairələrə problemləri bəzən düzgün çatdırmırlar. Heç olmasa o mahnıları dinləyib problemlərdən agah olsunlar. Və ondan savayı demək istədiyim odur ki, mən öz ölkəmi çox sevirəm, vətənpərvərəm, hər an onun yolunda canından keçməyə hazır olan bir insanam. İstərdim ki, bütün azərbaycanlıların rifahı yaxşı olsun.

Qaldı ki, toy məclislərinə, deyim ki, indi şadlıq sarayları da rüşvətlə işləyirlər. Orda təyin olunan administratorlar tanışlıq, qohumluqla işə götürülür. Əgər vaxtında şansımdan istifadə etsəydim... o zaman çox hörmətli Brilliant Dadaşova ilə olan mahnıma görə bütün şadlıq sarayları məni dəvət etmişdilər. Sadəcə, o vaxtı həmkarlarım da mənim fikrimlə razılaşırdılar ki, rep klub mədəniyyətidir, şadlıq sarayları üçün deyil. Mən də o yolu tutmuşdum. İndi hesab edirəm ki, şou-biznes toyların üstündə qurulub, bütün qazanc yeri ancaq toylardır. Klubların qazancı çox olmadığından təqdim etdikləri pul da çox deyil. Üstəlik, insanlar hər dəfə klublara getmir, hər gün ora dolu olmur. Ona görə də repin milliləşməyə ehtiyacı var. 50 faiz milliləşib, digər qismi üçün isə hələ ki zaman lazımdır... Hətta özüm də şadlıq saraylarına müraciət etmişəm. Tutaq ki, daimi bir iş üçün deyiblər ki, sizə 50 manat verəcəyik. Deyir ki, bunun 30 manatını mən yeyəcəm, 20 manatını sənə verəcəm. Xoşun gəlir gəl, gəlmirsə gəlmə. Deməli, mən 20 manata görə hansısa şadlıq sarayında gedib oxumalıyam. Bax belə...

***- Ölkəni çox sevdiyinizi qeyd etdiz, amma hazırda ölkədə işsizsiz və ailəniz, övladlarınız var. Qazanc xətrinə ölkə xaricinə getməyi düşünmüsüzmü?***

- Vallah, istəmirəm. Bu cür istəyim yoxdur. Amma şübhəsiz son məqamda insan nəyəsə əl atır. Amma ki, ilk növbədə övladlarımı, onların öz ölkəmdə rifahını düşünürəm. Oğlum Avropa liseyində təhsil alır, qızım Azərbaycan haqqında 3-4 şeir bilir. Yəni mən əslində öz ölkəm, vətənim üçün hər an şəhid olmağa hazır bir insanam.

***- Xaricdən dəvətlər alırsızmı?***

- Çox gəlir, həqiqətən çox olur. Xaricdə yaşayan insanlarımızın rifahlarını Allah xoş, yaxşı eləsin. Onlara “otxod” deyənlərin Allah cəzasını versin. Çünki onlar hansı əziyyətlərdən, od-alovlardan keçdiklərini bir Allah bilir və mən də şahidəm. Əslində xaricdə, ya da ölkəmizdə yaşadın, bunun məsələyə dəxli olmamalıdır. Çünki bizim Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü var. Belə bir günü olan ölkənin azərbaycanlılar haqqında “otxod” deməyə heç kimin ixtiyarı yoxdur. Onlar yenə də azərbaycançılıq naminə çalışırlar, hər nə işlə məşğul olurlarsa olsunlar.

***- İşlə bağlı müraciətinizdən sonra jurnalistlərdən başqa sizinlə əlaqə yaradan, iş təklifləri verən oldumu?***

- Dostlardan bir neçə nəfər oldu. Amma (acı-acı gülür) inandırım sizi, onlarda da çətinliklər var. Məsələn, kiçik bizneslə məşğul olan bir dostum var. Dedi ki, çox böyük məmnuniyyətlə işləyərdik, amma mən də biznesimi təhvil verdim, köçürəm Moskvaya... Bilmirəm nə baş verir, təki bütün azərbaycanlılar üçün hər şey yaxşı olsun...

❑ **Xalidə GƏRAY**

# 12 kredit ittifaqının lisenziyası ləğv edildi

**Maliyyə Bazarlarına Nəzarət Palatasının (MBNP) Direktorlar Şurasının qərarına əsasən “Arzu Kredit İttifaqı”, “Azəri-invest Kredit İttifaqı”, “Cənub Kredit İttifaqı”, “Ceyhun Kredit İttifaqı”, “Compass Kredit İttifaqı”, “F.A.S. Kredit İttifaqı”, “Həkəri Kredit İttifaqı”, “Kredo-İnvest Kredit İttifaqı”, “Real Kredit İttifaqı”, “Tərəkəmə Kredit İttifaqı”, “Tural Kredit İttifaqı” və “Yardımlı Kredit İttifaqı”nın fəaliyyətinə verilmiş lisenziyalar ləğv edilib.**



Palatadan “APA-Economics”ə verilən məlumata görə, lisenziyaların ləğv edilməsinə səbəb sözügedən kredit ittifaqları tərəfindən hesabatlıq qaydalarına riayət olunmaması, habelə bu təşkilatlar üzrə 2015-ci il üçün kənar auditin aparılmaması faktları olub.

MBNP “Kredit ittifaqına bank fəaliyyətinin həyata keçirilməsi üçün xüsusi razılıq (lisenziya) verilməsi Qaydaları”nın 4.4.4-cü və Palatanın Nizamnaməsinin 5.3.20-ci yarımbəndlərini rəhbər tutaraq sözügedən kredit ittifaqlarının fəaliyyətinə verilmiş lisenziyaları ləğv edib.

Qeyd edək, Palata fəaliyyətə başladığı dövrdən etibarən bank sektorunda aktiv siyasət və tənzimləmə tədbirlərinin həyata keçirilməsi ilə yanaşı, bank olmayan kredit təşkilatlarının fəaliyyətinə də xüsusi nəzarət rejimi tətbiq etməyə davam edir. Belə ki, kredit təşkilatları tərəfindən prudensial normativlərə və mövcud qanunvericiliyin tələblərinə riayət olunmaması hallarına qarşı adekvat tədbirlər görülür.

# Bakıda qanunsuz fəaliyyət göstərən ət sexi aşkarlandı

Qida təhlükəsizliyi ilə əlaqədar alınmış məlumat əsasında Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Baytarlıq Nəzarəti Xidmətinin (DBNX) mütəxəssisləri və Daxili İşlər Nazirliyinin Bakı Şəhər Baş Polis İdarəsinin İctimai Təhlükəsizlik İdarəsinin əməkdaşları ilə birlikdə Bakı şəhəri, Nəsimi rayonu, Səməd Vurğun küçəsi 73 ünvanında yerləşən Məmmədağa İbrahimova məxsus "Təzə bazar" MMC-də reyd keçirilib.



DBNX-nın mətbuat xidmətindən APA-ya verilən məlumata görə, reyd zamanı Məmmədağa İbrahimova məxsus "Təzə bazar" MMC-nin ət satışı şöbəsinin yanında gecələr gizli, qanunsuz, antisanitar şəraitdə fəaliyyət göstərən, primitiv şəkildə quraşdırılmış əti sümükdən ayıran sex aşkarlanıb.

Ətin sümükdən ayrılmasına sexə baxış keçirərkən 14 ədəd hissələrə bölünmüş 320 kq heyvan əti, 5 ədəd ağ polietilen torbalarda 64 kq sümükdən ayrılmış heyvan əti, 5 ədəd heyvanın daxili orqanları aşkar edilib.



Ümumi çəkisi 445 kq olan heyvan ətinin və daxili orqanların mənşəyinə və sağlamlığına dair heç bir sənəd təqdim olunmadığı üçün həmin ətlərdən və daxili orqanlardan baytarlıq qanunvericiliyinə uyğun nümunələr götürülərək müayinə üçün Respublika Baytarlıq Laboratoriyasına göndərilib.

Laboratoriya müayinələrinin nəticələri məlum olana kimi 445 kq heyvan əti və daxili orqanlar müvəqqəti saxlamaq üçün komissiyanın iştirakı ilə soyuducu kameraya yerləşdirilərək möhürlənib.

**Keçirilən reyd zamanı Məmmədağa İbrahimova məxsus "Təzə bazar" MMC-də əti sümükdən ayıran sexdən götürülən nümunələrin laboratoriya müayinələrinin nəticəsindən asılı olaraq qanunvericiliklə müəyyən olunmuş qaydada qərar qəbul edilərək tədbirlər görüləcək.**

# İrana araq aparan qaçaqmalçı saxlanıldı

**Azərbaycandan İrana spirtli içkilərin qaçaqmalçılıq yolu ilə aparılmasına cəhdin qarşısı alınıb. Bu barədə Trend-ə Dövlət Gömrük Komitəsindən məlumat verilib.**

Biləsuvar Gömrük İdarəsinin Gömrük hüquqpozmalarına qarşı mübarizə şöbəsinə daxil olan məlumat əsasında, idarənin "Qoşa Təpə" gömrük postunda Azərbaycandan İrana gedən İran vətəndaşı Abdolı Mahmood Bahar Alının idarə etdiyi "Scania" markalı sərnişin avtobusu saxlanılıb və nəqliyyat vasitəsi əsaslı şəkildə yoxlanılıb.

Yoxlama zamanı avtobusun arxa təkərinin üstündə yük üçün nəzərdə tutulmuş yerdən, həmin yerin metal döşəməsinin altındakı boşluqdan, malların aşkar edilməsini çətinləşdirən üsuldan istifadə etməklə gömrük nəzarətindən gizlədilmiş, Azərbaycanın aksiz markası ilə markalanmış 110 ədəd müxtəlif adda bir litrlik araqlar aşkar edilərək götürülüb.

Faktla bağlı araşdırma aparılır.

# Bakıda ərəblər qarət edildi

**Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, yanvarın 4-də Səbail rayonunun Neftçilər prospektindəki hotellərdən birində Birləşmiş Ərəb Əmirliyi vətəndaşları Abdullah İbrahim Əlzaidin yaşadığı otaqdan geyim əşyaları, Muhammed Muammar Abdullahın yaşadığı otaqdan isə 1500 avro dəyərində brilyant qaşlı boyunbağı oğurlanıb.**

Səbail Rayon Polis İdarəsinin 39-cu Polis Bölməsi əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində hadisəni törətməkdə şübhəli bilinən Bakı şəhər sakini Aylana Hacıyeva tutulub.



# Kreditə götürdüyü fotoaparatın pulunu ödəyə bilmədi, özünü asdı

**Bakıda intihara cəhd olub. Sabunçu rayon Prokurorluğundan APA-ya verilən məlumata görə, hadisə Sabunçu rayonu, Bakıxanov qəsəbəsində qeydə alınıb. Qəsəbə sakini, 27 yaşlı Müslümov Natiq Tahir oğlu yaşadığı evin həyətində özünü asıb. Valideynləri tərəfindən dərhal xilas edilən N.Müslümov xəstəxanaya yerləşdirilib. Onun vəziyyəti normal qiymətləndirilir.**

Məlumata görə, N.Müslümov şadlıq evlərindən birində fotoqraf kimi çalışır. Bir müddət əvvəl o, kreditə bahalı fotoaparat götürüb. Lakin krediti ödəyə bilmədiyi üçün özünəqəsdə əl atıb.

Faktla bağlı araşdırma aparılır.

# Bakıda məhbus şalvarının kəməri ilə özünü asıb öldürdü

**Bakıda ciddi rejimli cəzaçəkmə müəssisəsində cəza çəkən məhbus şalvarının kəməri ilə özünü asaraq intihar edib. "Report"un xəbərinə görə, hadisə Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin Nizami rayonu, Böyük Şor qəsəbəsində yerləşən 15 saylı ciddi rejimli Cəzaçəkmə Müəssisəsində baş verib.**

Belə ki, müəssisədə cəza çəkən 1984-cü il təvəllüdlü Aslanov Mahir Nazir oğlu müəssisənin yaşayış sahəsində yerləşən idman kompleksindəki meydançanın tavanından özünü şalvarının kəməri ilə asıb.

Faktla bağlı Nizami Rayon Prokurorluğunda Cinayət Məcəlləsinin 125-ci (özünü öldürmə həddinə çatdırma) maddəsi ilə cinayət işi başlanılıb.



# Təcridxanada qulağını kəsib yeyən şəxsə 7 illik həbs cəzası verildi

**Bakı Ağır Cinayətlər Məhkəməsində narkotik vasitələrin qanunsuz satışında təqsirləndirilən Hünər Cəfərovun cinayət işi üzrə məhkəmə prosesi başa çatıb.**

APA-nın xəbərinə görə, Mirzə Xankişiyevin sədrliyi ilə keçirilən prosesdə hökm oxunub.

Hökmə əsasən, H.Cəfərov 7 il müddətinə azadlıqdan məhrum edilib.

Qeyd edək ki, Penitensiar Xidmətin yaydığı məlumata görə, Astara rayon sakini, 1982-ci il təvəllüdlü məhkum, indiyədək üç dəfə müxtəlif müddətlərə azadlıqdan məhrum edilmiş Hünər Abbasəli oğlu Cəfərov narkotik satışına və istifadəsinə görə həbs edilib.

H.Cəfərov birinci dəfə fərariliyə, ikinci dəfə hərbi hissəni özbaşına tərk etdiyinə görə həbs edilib. Üçüncü dəfə isə narkotik maddə qaçaqmalçılığına görə cəza çəkib.

H. Cəfərov dördüncü dəfə də narkotiklə tutulub. H. Cəfərov barəsində həbs-qətimkan tədbiri seçiləndən sonra apelyasiya şikayəti verib. Amma Apelyasiya Məhkəməsi rayon məhkəməsinin qərarını qüvvədə saxlayıb.

Məhkəmənin bu qərarından narazı qalan H.Cəfərov isə etiraz əlaməti olaraq və istintaqa və məhkəməyə təzyiq göstərmək məqsədilə qulağının bir hissəsini alışqanın metal hissəsi ilə kəsib və nümayişkaranə şəkildə yeyib.

**Kişilər!!! Axırıncı şans!!!**

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

---

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

---

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)

**Tel: (050) 213 88-05.**

**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**

Yeni MÜSAVAT
N 2 (6616) 7 yanvar 2017

# “Kimsəsizlər qəbiristanlığı” - sözün də bitdiyi yer...

## Bakıdakı kimsəsiz yəhudi, xristian və müsəlmanların dəfn olunduğu ərazi niyə polis nəzarətindədir?

**Adından da göründüyü kimi, qocalar evində dünyasını dəyişənlərin, həbsxanada ölən qatı cinayətkarların, imtina edilmişlərin dəfn olunduğu yerdir “Kimsəsizlər qəbiristanlığı”... Burada dəfn olunanları ziyarətə gedənlər o qədər azdır ki, ünvanı çətinliklə tapdıq.**



Öyrəndik ki, kimsəsizlərin son mənzili Xocahəsən yolunun üzərində yerləşir. Qəbiristanlığa daxil olub, kimsəsizlər məzarlığının harada olmasını soruşduq. Qəbir daşları düzəltməklə məşğul olan şəxs tozlu əllərini üstünə çırpa-çırpa, qəribə baxışlarla bizi süzdü. Çox güman ki, kimsənin ayaq basmadığı bu məzarlığı axtarmağımız ona qəribə gəldi: “Bu yolla gedirsən, yolun qırağında görəcəksən. Bu mərmərlər bitəndə... Sol tərəfdədir”.

Qəbiristanlığın arası ilə 3-4 kilometr irəlilədikdən sonra dəbdəbəli məzarlar bitdi. Buranın kimsəsizlər qəbiristanlığı olduğunu təxmin edib ayaq saxladıq.

Üstündə taxta lövhələr, müxtəlif hərf birləşmələri yazılan, baş daşı olmayan məzarlar ucsuz-bucaqsız çöldə göz gəzdikcə uzanır. Ərazinin kimsəsizlər məzarlığını sübut edən hər hansı bir işarə yoxdur.

Əksər məzarların üzərində “NKM” və “NQM” yazılıb. Öyrəndik ki, bu yazıların mənası naməlum kişi meyiti və naməlum qadın meyiti deməkdir.

Qəbiristanlığın girişində, yerdə bir neçə taxta parçası üzərində nömrələnmiş, üzərində “Mayısov” yazılmış paslı dəmir lövhələrinə rast gəlirik. Bir qədər irəlilədikcə bu lövhələrin sayı çoxalır. Ətrafda yüzlərlə məzarlar var. Qarğaların səsindən qulaq tutulur. Hər tərəfi ot-alaq basıb. Bəzi qəbirlərin lövhəsində isə ad və soyad yazılıb. Lakin məzarlar baxımsızlıqdan bərbad vəziyyətə düşüb, qəbirlər çöküb, yerində oyuq yaranıb.





### Xristian, yəhudi və müsəlmanlar bir yerdə...

Kimsəsizlər qəbiristanlığında dini ayrı-seçkiliyə yol verilməyib. Yeni xristian, yəhudi və müsəlmanlar eyni yerdə dəfn olunub. Məzarların üzərində dəmir xaçların çox olması bu qəbiristanlıqda xristianların daha çox olduğunu göstərir. Ehram şəklində olan qəbir daşları isə burada yatanın yəhudi olduğuna işarədir. Bu məzar yeri yoxa çıxsa da, dəmirdən, daşdan ucaltdıqları abidələr buranın qəbir yeri olduğunu göstərir. Müsəlmanların dəfn olunduğu qəbirlərə baş daşı əvəzinə sadəcə taxta lövhələr qoyulduğundan, sonradan həmin taxtanın itməsi ilə məzar yeri də itir.

Kimsəsiz məzarlara qoyulan kiçik başdaşları torpağa qarışaraq itib. Yalnız diqqətlə baxanda burada nə zamansa qəbir olduğu anlaşılır. Qəbirlərin üzərinə qoyulan lövhələr isə demək olar ki, itib. Məzarlar o qədər dayaz qazılıb ki, hətta heyvanlar meyitləri asanlıqla çıxara bilərlər. Ucsuz-bucaqsız və kimsənin olmadığı qəbiristanlıq insanı vahiməyə salır.

### Kimsəsiz çinlinin məzarı...

İmkanlı şəxslərin qəbirlərinin olduğu məzarlıqla kimsəsizlər qəbiristanlığını kiçik bir yol ayırır. Kimsəsiz ölülərə baxanda adı, soyadı, bahalı başdaşı, ətrafında ziyarətçiləri olan ölülər şanslıdır deyə düşünürsən. Bəzi imkanlı insanlar var ki, qohumlarının məzarına qulluq etmək üçün xüsusi adam tutub və aylıq maaş ayırır. Qəbiristanlıqdakı belə işçilərdən biri ilə həmsöhbət olduq. Məlum oldu ki, o, hansısa generalın dünyadan köçmüş əzizlərinin qəbrinə nəzarət edir və aylıq maaş alır.

Həmsöhbətim kimsəsizlər qəbiristanlığı haqqında bizə məlumat verdi. Qəbiristanlığın nə zamandan salındığını bilməsə də, son vaxtlar kimsəsiz məzarların sayının çoxaldığını dedi: “Bu məzarlıqda hər millətdən insan var. Xristianlar daha çoxdur. Kimsəsizlər qəbiristanlığı olsa da, bəzən ziyarətə gəlirlər. Digər millətlər bizim camaatdan daha çox canıyanandırlar. Bir dəfə bir çinlinin qəbir üstündə ağladığını gördüm. Düşüb bir-bir qəbirləri gəzib, deyəsən öz qohumunu, ya da dostunu axtarırdı. Tapa bilmədiyi üçün ağlayırdı. Heç bir nişanə qoymadan torpağa basdırmışdılar”.

**Təbriz adlı həmsöhbətimiz bildirdi ki, məzarların üzərində ad olmasa da, nömrə qeyd olunur və həmin məzarın kimə məxsus olduğu bu cür müəyyənləşdirilir:** “Hər məzarın üzərində lövhə olur və onun üzərində də nömrə qeyd olunur. Çinlinin lövhəsi itmişdi. Hələ məndən də kömək istədi. Onu birtəhər başa saldım ki, belə tapa bilməyəcəksən. Qəbiristanlığın girişində müdiriyyət əyləşir. Kimsəsizlər qəbiristanlığında dəfn olunanların siyahısı onda var. Orada məzarların hər birinin xüsusi kodu yazılıb. Bu kodları morqda verirlər. Yalnız onun vasitəsi ilə tapmaq olur. Çinlinin axtardığı məzarı bu yolla tapdıq. Çinlinin bu qədər qayğıkeş olması məni təəccübləndirdi. Sizi inandırım ki, adam var illərlə əzizinin qəbri üstünə gəlmir. Baxırsan ki, minlərlə manat xərc çəkib, bahalı mərmər düzəltdirib, ancaq gəlib ziyarət etmir”.

Kimsəsizlər qəbiristanlığından ayrılarkən o məlum oldu ki, gözdən-qulaqdan kənar olan bu ərazi cinayətkarlar üçün də əlverişli görüş yeridir. Belə ki, qəbiristanlığın içərisində 3-4 nəfər olan avtomobil qarşımızı kəsdi. Gəlib bizdən avtomobildən düşməyimizi xahiş etdilər. Özlərini Cinayət Axtarış İdarəsinin əməkdaşları kimi təqdim edən bu şəxslər kimsəsizlər məzarlığına nə məqsədlə gəldiyimizlə maraqlandılar. Onlar narkotik satışı həyata keçirdiyimizi düşünüblər. Yolu soruşduğumuz başqa bir avtomobili isə bizim “ortağımız” sanıblar. Avtomobilimizdə bir neçə dəqiqə axtarış apardıqdan, sənədlərimizi yoxladıqdan və uzun sorğu-sualdan sonra jurnalist olduğumuza inanmağa başladılar. Bildirdilər ki, ərazi şəhərdən kənarda yerləşdiyi üçün cinayətlərin baş verdiyi əsas yer hesab olunur. Burada ən çox narkotik satışı həyata keçirilir. Bu səbəbdən də kimsəsizlər qəbiristanlığı hüquq-mühafizə orqanlarının ciddi nəzarəti altındadır...

**Məğrur MƏRD**
**Fotolar müəllifindir**









# “21-ci əsrdə yol polisi olmadan hərəkətimizi tənzimləyə bilmirik”

**Vaqif Əsədov:** “Piyadaların avtomobillərlə vurulması ümumi hadisələrin təxminən 50-52 faizini təşkil edir ki, bu da çox ciddi narahatçılıq doğurur”

**Bayram günlərində (dekabrın 31-dən yanvarın 5-dək) ölkə üzrə 20 nəfər avtoqəzalarda dünyasını dəyişib. Daxili İşlər Nazirliyinin yaydığı məlumata görə, 2016-cı il dekabrın 31-dən yanvarın 5-dək respublikanın avtomobil yollarında 27 yol nəqliyyat hadisəsi baş verib. Nəticədə 20 nəfər ölüb, 37 nəfər xəsarət alıb.**



Vaqif Əsədov

Təkcə Bakı şəhərində 8 yol nəqliyyat hadisəsi qeydə alınıb. Nəticədə 4 nəfər ölüb, 10 nəfər isə xəsarət alıb.

Bu barədə “Yeni Müsavat”a **Bakı şəhər Dövlət Yol Polisi İdarəsinin ictimaiyyətlə əlaqələr şöbəsinin rəisi Vaqif Əsədov** məlumat verib. O, hadisələrin baş vermə səbəbləri barəsində aşağıdakıları söyləyib:

“4 ölüm hadisəsindən ikisi piyada vurma, ikisi isə maneə vurma səbəbindən baş verib. Həmişəki kimi piyadaların avtomobillərlə vurulması ümumi hadisələrin təxminən 50-52 faizini təşkil edir ki, bu da çox ciddi narahatçılıq doğurur. Hər halda 2016-cı ildə Bakı şəhəri üzrə qeydə alınan yol nəqliyyat hadisələri bütün göstəricilərinə görə müsbətə doğru dinamika üzrə hərəkət edir. Yeni hadisələrin sayı, eyni zamanda ölümlə, xəsarətlə bağlı göstəricilər aşağı düşüb. Bu da yol polisinin vaxtaşırı keçirdikləri tədbirlərin hesabınadır. Ancaq mövcud şərait deməyə əsas verir ki, yol hərəkətində nizam-intizam yüksələrsə, mədəniyyət səviyyəsi formalaşarsa, bu hadisələri minimuma da endirmək mümkündür. Yeni idarəedilən nəqliyyat vasitəsinin markasından, növündən asılı olmayaraq yol hərəkəti haqqında qanunun tələbi pozulur və hadisə baş verir. Hadisədən də heç kim sığortalanmır. Lakin tələbləri öyrənib, yerinə yetirməliyik ki, bu hadisələr baş verməsin”.

**V.Əsədov bildirib ki, çox təəssüf ki, 21-ci əsrdə Azərbaycan kimi tanınan dövlətin vətəndaşları olaraq, yol polis nəfəri ərazidə olmadan öz hərəkətimizi tənzimləyə bilmirik:** “İnanıram ki, 2017-ci il Xoruz ili ən azından ərazidə polis əməkdaşları olmadan, aparılan yüksək səviyyəli təbliğat və keçirilən tədbirlərin nəticəsində mədəniyyət səviyyəsi formalaşacaq, hadisələr isə sayca azalacaq. Bu təkcə yol polislərindən asılı deyil. Hər kəs məsuliyyətini dərk etməlidir. Yol hərəkətində şəxsi mənafe, ümummilli mənafedən üstün tutula bilməz. Unutmaq olmaz ki, yol qəzalarında həlak olanlar, elə bizlərdən biridir, bu dövlətin vətəndaşlarıdır. Deməli, hər kəs məsuliyyətini artırmalıdır”.

**Əli RAİS**

YENİ MÜSAVAT

Son səhifə

N 2 (6616) 7 yanvar 2017

# Onlar pişikləri kirayə verirlər



Almaniyanın Köln şəhərində bu günlərdə qəribə bir firma fəaliyyətə başlayıb. Kirayə pişik firması bir neçə günlüyə, hətta aylığa pişik sahibi olmaq istəyənləri arzusuna çatdırır. Firmanın 37 yaşlı sahibi Mark İvon deyib ki, onlara daha çox gənc qızlar və valideynlər müraciət edir. Qızlar rəfiqələrindən və ya sevgililərindən ayrı qalanda təsəllini bu yumşaq tüklü heyvanda tapırlar. Valideynlər isə hesab edir ki, uşağa sevgi hissi aşılamaq üçün onu heyvanlara yönəltmək vacibdir. İlk növbədə uşağa pişik kimi zərərsiz heyvanın köməyi ilə heyvan sevgisi aşılanır. Pişiklərin bir aylıq kirayəsi 90 dollar civarındadır. İstəyənlər bir neçə günlük və ya həftəlik də pişik kirayələyə bilər ki, bu da günlük 3 dollar anlamına gəlir.

# Kuklanı həyat yoldaşı kimi saxlayır



Alman fotoqraf Sandra Hoyn çox əcaib bir cütlüyün şəkillərini paylaşıb. Dirk və Cenni adlı bu cütlük hər kəsə nümunə kimi görünsələr də, dövrümüzün sevgililəri ilə aralarında böyük bir fərq var. Bu da Cenninin insan yox, gəlincik olmasıdır. Fotoqraf Sandra internet vasitəsilə Dirk ilə tanış olandan da onun bu ilginc sevgi hekayəsinin fotosunu çəkərək bütün dünya ilə paylaşmaq istəyib. Həqiqi adı bilinməyən Dirk 40 yaşındadır, Cennidən əvvəl evlənib və boşanıb, hazırda çalışır. Yaşadığı psixoloji çöküntünün ardınca satın aldığı gəlinciyin, yəni Cenninin onu sevdiyinə və başqa bir planetdən bu dünyaya gəldiyinə inanır. Dirk Cennini başda ailəsi, dostları, uşağı və keçmiş həyat yoldaşı olmaq üzrə hər kəsdən gizlətmək məcburiyyətindədir. Amma ən böyük xəyallarından biri onu cəmiyyət içərisinə çıxara bilməkdir. Bundan başqa, yaşlananda Cenniyə nə olacağını düşünüb narahat olur. Çünki onun fikrincə, Cenni həm fiziki, həm də ruhi baxımdan olduqca həssasdır. Fotoqraf Sandra isə hesab edir ki, Cenni və Dirk qeyri-adi vərdişləri olan, qeyri-adi bir cütlükdür. Dirk isə bu münasibəti barədə aşağıdakıları deyib: "Keçmiş həyat yoldaşımla daim dava edirdik. Cenni ilə elə deyilik. Rahatlığı onda tapdım. Cenni çox həssas bir varlıqdır. Kimsəsiz və yardıma möhtacdır".



# Gənc oğlan zarafatla hamiləlik testi etdi... xərçəng olduğu bilindi

**Sevgilisinə aid hamiləlik testini zarafat olsun deyə özünə tətbiq edən adam sonda şok bir nəticə ilə qarşılaşıb. Belə ki, test pozitiv göstərib...**

Bununla da gənc oğlanın əslində xərçəng olduğu müəyyənləşib. Xərçəngə yoluxan gəncə həkimlər bildiriblər ki, erkən diaqnoz sayəsində sağalmaq ehtimalı böyükdür. Maraqlıdır ki, əslində oğlan testin nəticəsini görəndə bunu yanlışlıq hesab edib. Amma dostları bunu sosial şəbəkədə paylaşanda şərhçilərdən biri adama xərçəng testindən keçməsini tövsiyə edib. ABŞ Milli Sağlamlıq İnstitutunun alimləri bildirib ki, əslində hamiləlik testləri sidikdə olan xroniki gonadotropin beta hormonunun miqdarını təyin edə bilir. Testis xərçəngi ilə bağı olan bu hormon hamiləlik əsnasında xüsusən aktivləşir.




**QOÇ** - Perspektivlərinizi reallaşdırmaqda tənbəllik edirsiniz, sizə lazım olan bütün gedişləri bildiyiniz halda fəaliyyət göstərmirsiniz. Sonra başqalarında günah görməmək üçün münasib addım atın.

**BUĞA** - Ay bürcünüzdə olduğundan yersiz risk etməyin. Əgər haqlısınızsa, bunu gec-tez hamı biləcək. Saat 17-dən sonra şəxsi işlərinizdə böyük dönüş gözlənilir. Təşəbbüskar özünüz olun.

**ƏKİZLƏR** - İxtiyarınıza elə bir gün verilib ki, yalnız öz gücünüzə güvənməlisiniz. Kənar müdaxilə və məsləhətlər önəmli deyil. Günün ikinci yarısını bütünlüklə sevgiyə həsr edin.

**XƏRÇƏNG** - Müntəzəm surətdə təmasda olduğunuz adamların obyektiv rəyləri ilə hesablaşmağa çalışın. Məsləhət almaq ayıb iş deyil. Onu da nəzərə alın ki, bu təqvim qazanc üçün çox səmərəlidir.

**ŞİR** - Əvvəlki günlərdən fərqli olaraq bu ərəfədə rahatlıq əldə edəcəksiniz. Hər hansı konfliktlə üzləşmə ehtimalınız da yoxdur. Sağlamlıqla bağlı sıxıntılarınız kifayət qədər səngiyəcək.

**QIZ** - Çoxdan bəri donub qalmış planlarınızı dirçəltmək üçün bəzi şəxslərə müraciət etməyiniz böyük səmərə verə bilər. Saat 14-dən sonra şəxsi büdcənizi artırmağa şanslı olacaqsınız.

**TƏRƏZİ** - Yeni ideyalarınızı reallaşdırmağı bacarsanız, uğurlarınız daha da yaxınlaşacaq. Yeganə narahatçılığınız səhhətlə bağlı ola bilər. Günün ikinci yarısını sövdələşmələrə həsr edin.

**ƏQRƏB** - Maraqlı görüşlər yolunuzu gözləyir. Güman ki, sizi böhranlı vəziyyətdən çıxara bilən insanlarla qarşılaşacaqsınız. Amma belə məqamlarda təmkinli olun ki, sonda gülə biləsiniz.

**OXATAN** - Səhər saatlarında qeyri-ciddi adamların xoşagəlməz rəftarı ilə üzləşə bilərsiniz. Çalışın ki, belə amillər ovqatınızı korlamasın. Nahardan sonra işləriniz qaydasında gedəcək.

**OĞLAQ** - İşgüzar və riskli sövdələşmələrdə iştirakınızı təxirə salmağa çalışın. Çünki ixtiyarınızda olan bu tarix deyilən məsələlər üçün önəmli deyil. Amma səfər və səyahətlər üçün uğurlu vaxtdır.

**SUTÖKƏN** - Günün ümumi mənzərəsi gərgin olsa da, bunun qarşısını ala bilərsiniz. İlk növbədə səbr nümayiş etdirin və imkan daxilində müqəddəs ziyarətgahlarımızdan birinə üz tutun.

**BALIQLAR** - Əsas diqqətinizi fəaliyyət istiqamətinə yönəldin. Qarşılıqlı münasibətlərdə, alış-veriş məsələlərində isə hansısa müvəffəqiyyət gözlənilmir. Axşam bütün risklərdən uzaq olun.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Atasının dəfninə 50 striptizçi çağırdı



Tayvan sakini öz atasının dəfninə 50 striptizçi dəvət edib. Bu barədə lenta.ru saytı "The Daily Mail"ə istinadən xəbər verib. Mərhum Tayvanın keçmiş məmurlarından biri olub. Onun oğlu öz hərəkətinə belə haqq qazandırıb ki, atası yaşamağı və həyatı çox sevirdi, ona görə də gözəl dəfn mərasimi təşkil etmək istəyib. Vida mərasimi yanvarın 3-də dar bir çevrədə keçirilib. Ondan sonra dəfn komandası qəbiristanlığa yola düşüb. Striptizçilər isə 50 ədəd "Cip" markalı maşının üstündə rəqs ediblər. Onları isə ümumən 150 maşın təqib edib.

**Səhifəni hazırladı: SELCAN**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.100